**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN XALQ POEZİYASI VƏ MÜASİR ELMİ İDRAK: SİNERGETİK YANAŞMA

| | |
|---|---|
| İxtisas: | 7201.01 Bilik fəlsəfəsi |
| Elm sahəsi: | Fəlsəfə |
| İddiaçı: | **Fəxrəddin Abdulkərim oğlu Quliyev** |

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissrrtasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "İdrak nəzəriyyəsi və məntiq" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: fəlsəfə elmləri doktoru
**Füzuli Məhəmməd oğlu Qurbanov**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Əli Seyidabas oğlu Abasov**

Fəlsəfə elmləri doktoru, dosent
**Vilayət İsmayıl oğlu İsmayılov**

Fəlsəfə elmləri doktoru
**Sədaqət Məmmədhüseyn qızı Əliyeva**

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Tehran Əlişan oğlu Mustafayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.33/2 birdəfəlik dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: ____________ fəlsəfə elmləri doktoru, professor
**Arif Rüstəm oğlu Büniyatov**

# İŞİN ÜMUMİ XARAKTERİSKASI

**Mövzunun aktuallığı.** Keçən əsrin ikinci yarısından başlayan qloballaşma prosesi müasir dövrdə total xarakter alaraq dünya sivilizasiyasının bütün sahələrini əhatə etməkdədir. Dövlətlərarası siyasi, iqtisadi və mədəni əlaqələr dərinləşir və möhkəmlənir. Keçən dövr ərzində sivilizasiyanın getdikcə artan inkişaf tempi çoxaspektli və çoxmərhələli qloballaşma prosesinin mürəkkəb və ziddiyyətli tərəflərini daha qabarıq şəkildə üzə çıxarmışdır.

Qloballaşma dövründə bir tərəfdən milli mədəniyyətlərin unikallığının getdikcə itirilməsi təhlükəsi ilə qarşılaşırıq, digər tərəfdən isə qloballaşmanın əsas enerji mənbəyi və hərəkətverici qüvvələrindən biri, informasiya inqilabı ilə milli mədəniyyətlərin intibahı üçün əlverişli şərait yaranır və mədəniyyət fenomeni qloballaşma prosesinin aparıcı faktoruna çevrilir.

Milli mədəniyyət hər bir xalqın tarixi inkişafı yolunda yaradıcılıq potensialının açılması üçün tükənməz ilham mənbəyi funksiyasını daşıyır. Milli mədəniyyətin təməl elementlərindən biri folklor, şifahi xalq poeziyasıdır. Hər bir xalqın gerçəkliyə münasibəti, dünyabaxışı, düşüncə və həyat tərzi haqqında ilk və geniş məlumatlar şifahi xalq yaradıcılığında öz əksini tapır.

Xalq poeziyası mifdən ayrılmışdır, mifin düşüncə və struktur xüsusiyyətlərini özündə ehtiva edir. Çoxəsrlik inkişafı nəticəsində xalq poeziyasının müasir mükəmməl və mürəkkəb iyerarxik strukturu formalaşmışdır.

Xalq poeziyası öncə söz sənətidir. Söz sakraldır, söz canlıdır. Söz sənəti kimi poeziya ilkindir, nəsrdən qədimdir. Bəşər övladı özünü dərk etməyə başlayandan bəri özü və onu əhatə edən dünya haqqında düşüncələrini ilk dəfə şeir formasında ifadə etmişdir. Poeziya insanların mənəviyyat dünyasını həm ifadə edir, həm də formalaşdırır, yəni poeziya polifunksionaldır. Xalq poeziyası xalqın milli fəlsəfi düşüncəsinin əsas qaynaqlarından biri, milli psixologiyası və milli etnoqrafiyasının ifadəçisi, nəhayət, hər bir xalqın dominant atributu ana dilinin yaradıcısı və mənəviyyat güzgüsüdür.

Xalq təfəkkürünün və xalq poeziyasının öz kateqoriyaları

mövcuddur, xalq poeziyasının fəlsəfi obyekt kimi tədqiqində bu kateqoriyaların nəzərə alınması zərurətə çevrilir.

Söz sənətinin canlılığı sözə, poeziya sənətinə məxsus təkamül və inkişafı canlı orqanizmin təkamül və inkişaf qanunauyğunluqları ilə müqayisəli şəkildə tədqiq etməyə əsaslar verir. Bunun nəticəsində poeziyada insan orqanizminə məxsus dinamik bütövlük, təkamül və inkişafın qeyri-xəttiliyi, danışıq və fəaliyyətdə qənaət prinsipini rəhbər tutmaq kimi qanunauyğunluqları üzə çıxarmağa imkan verir. Təkamül proseslərinin tədqiqi sinergetikanın mövzusudur.

Sadalanan amillər mövzunun aktuallığını əyani nümayiş etdirir.

**Problemin işlənmə dərəcəsi.** XX əsrin 20-ci illərindən etibarən Azərbaycan folklor nümunələrinin toplanma və tədqiqi sahəsində canlanma müşahidə edilir və 80-ci illərə qədər Azərbaycan folklorşünaslığında aparılan tədqiqatların mövzusu kiçik istisnalarla folklor mətnlərinin janr xüsusiyyətləri, ifaçılıq sənəti və aşıq yaradıcılığının inkişaf mərhələləri olmuşdur.

P. Əfəndiyev aşıq yaradıcılığının ideya məzmununu xalqın azadlıq mübarizəsi, dünyagörüşü, həyat və məişəti, istək və arzuları, gələcəyə inamının əks olunmasında görür[1].

Q. Namazov folklorun, konkret aşıq sənətinin sinkretikliyini ön plana çəkir və aşıq sənətinin incəsənət və ədəbiyyatın bir neçə növünü vahid sənət vadisində birləşdirməsini nəzərə çatdırır[2].

Folklorun fəlsəfi məzmunu və millilikdən çox bəşəri olması haqqında Y. V. Çəmənzəminli hələ 1928-ci ildə yazırdı[3].

Folklor hər bir xalqın bizi əhatə edən dünyaya milli münasibətini, insan, cəmiyyət və təbiət haqqında milli düşüncələrini əks etdirir.

Görkəmli rus folklorşünası V. Y. Proppa görə folklorda gerçəkliyə münasibət müxtəlif janrlarda müxtəlifdir, onu janrlar üzrə öyrənmək daha məqsədəuyğundur[4].

---

[1] Əfəndiyev, P. Azərbaycan folklorşünaslığının problemləri/ P. Əfəndiyev. – Bakı: Elm və təhsil. –2010. – s. 96.

[2] Namazov, Q. Ozan-aşıq sənətinin tarixi/Q.Namazov. –Bakı: Elm və təhsil. –2013. s. 67.

[3] Çəmənzəminli, Y. V. Əsərləri:[3 cilddə]/ Y. V. Çəmənzəminli. –Bakı: Elm, –3cü cild. –1977. s. 57-58.

[4] Пропп, В.Я. Поэтика фольклора. Собрание трудов. Москва: Лабиринт, 1998, с.70-71

K.V. Çistov isə folklor poetikasını əsasən, "variasiya poetikası" adlandırır, müəllifin fikrincə variativlik sistemyaradıcı prinsipdir, bu strukturların mövcudiyyət formasıdır[5]. O, folkloru informasiya nəzəriyyəsi nöqteyi-nəzərindən təhlil edərək yazı mədəniyyətinin yaranması ilə folklor ənənələrinə məxsus subyektlə informasiya obyekti arasında canlı təmasın itirildiyini yazır[6].

İ.A. Qolovanova görə folklor şüuru folklor əsərlərinin təsiri altında yaranır, mahiyyətcə folklor əsərlərində təqdim olunan təsəvvür, obrazlar və ideyalar məcmusundan ibarət ideal obyektdir[7].

M. Qasımlı aşıq ədəbiyyatını yaradan sənətkarların yüksək bədii zövqə, dərin sənət biliyinə malik elm və hikmət sahibləri kimi tanındıqlarını yazır[8]. Buradan da yaradıcı aşıqların əsərlərində gerçəkliyə müdrik münasibətin təbii olması qənaətinə gəlmək olar. Bu fikrin davamı olaraq M. Qasımlı "aşıqlıq" ecazkar saz-söz sənəti olmaqdan daha çox möhtəşəm bir fəlsəfi sistem olduğunu qeyd edir[9] , ancaq bu sistemin konseptual mahiyyəti, tərkib elementləri açıqlanmır.

Son onilliklərdə folklorun tədqiqindəki metodoloji aspektin inkişafına dair S. Xavəri folklorşünaslıqda güclü bir inteqral metod formalaşmaqda olduğunu nəzərə çatdırır və bu istiqamətdə fənn paradiqmalarının sintezi rolunu daha perspektivli hesab edir[10]. Xalqın dünyagörüşünün formalaşmasında folklorun rolunu dəyərləndirən müəllif haqlı olaraq folklor ənənələrinin yaradıcı təbiətini vurğulayır, bunu geniş fəlsəfi mənada "insanın inkişaf sistemi" adlandırır[11]. Ancaq

---

[5] Чистов К.В. Народные традиции и фольклор: очерки теории. Ленинград: Наука, 1986, с. 176

[6] Чистов К.В. Специфика фольклора в свете теории информации// Вопросы философии, 1972, №2, с.117-118.

[7] Голованов, И. А. Фольклорный текст как многоуровневая структура. //– Воронеж. Вестник Челябинского государственного университета. Филология. Искусствоведение. Вып. 89. – 2014, № 7 (336). –с. 149.

[8] Qasımlı, M. Azərbaycan aşıq ədəbiyyatı./ M. Qasımlı. – Bakı:Şərq-Qərb. – 2019, – s.12.

[9] Qasımlı, M. Folklor və ədəbiyyat araşdırmaları./ M. Qasımlı. – Bakı: Elm və təhsil. – 2017. – s. 8.

[10] Xavəri, S. Folklorun funksional strukturu: multidissiplinar kontekst./ S. Xavəri, H. Quliyev, S. Qarayev, – Bakı: Elm və təhsil. – 2016. – s. 29.

[11] Xavəri, S. Folklor və milli mədəniyyət:funksional semantika problemləri./ s. Xavəri. – Bakı: Sabah. – 2018. – s.138.

bu inkişafın sərhədləri və hansı kateqoriyalara əsaslandığı müəyyən edilmir. F. Bayat folklorun zaman-zaman dəyişikliklərə uğrasa da, fəlsəfi və ontoloji təməlini uzun zaman üçün qorumaqda dayanıqlı olduğu fikrindədir[12].

Folklorda xalqın davranış və düşüncə tərzinin əks olunması məsələsinə toxunan A. Hacılı yazır ki, xalqın yaşayış və düşüncə tərzinin bayatıda gerçək inikası onun yarımaçıq sistem olmasındadır[13].

S. Mustafayevin dissertasiya işində folklor və milli düşüncə sisteminin fəlsəfi-analitik və folklorşünaslıq aspektlərinə baxılmışdır. Dissertasiya işinin məziyyətləri ilə yanaşı qeyd etmək lazımdır ki, xalq təfəkküründə gerçəkliyə münasibətin inkişaf dinamikasının milli mentalitet və etnik stereotiplər baxımından şərhinə daha çox diqqət verilməli idi[14].

Azərbaycan folkloruna həsr olunmuş tədqiqatlara qısa baxışdan bu nəticəyə gəlmək olar ki, şifahi xalq poeziyasında idrak məsələlərinin postqeyri-klassik paradiqma prinsipləri ilə tədqiqi diqqətdən kənarda qalmışdır.

Postqeyri-klassik elmi paradiqmanın nüvəsini sinergetik prinsiplər təşkil edir. Sinergetika fənlərarası bir tədqiqat sahəsi kimi H. Haken və İ. Priqojinin tədqiqatları əsasında formalaşmışdır.

H. Haken konsepsiyasının mərkəzində ixtiyari təbiətli sistemlərdə kooperativ proseslərin özünütəşkili durur[15].

İ. Priqojin dissipativ strukturları tədqiq etmiş. yüksək dərəcəli qeyri-tarazlıq vəziyyətləri üçün qeyri-xəttiliyin xarakterik olmasını göstərmişdir[16].

Açıq mühitdə enerjinin dissipasiyası ilə müşayiət olunan istiliyin ətaləti fenomeni, istiliyin müəyyən formada lokallaşdırılması, dalğaların yığılması və yanma intensivliyinin artması ilə bağlı S.P. Kurdyumovun

---

[12] Bayat, F., Folklor haqqında yazılar./F. Bayat. – Bakı: Eım və təhsil. –2010. – s. 24.

[13] Hacılı, A. Bayatı poetikası./ A.Hacılı. – Bakı:Elm, 2019, s. 140.

[14] Mustafayev, S. Azərbaycan folkloru və milli düşüncə sistemi: filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiya, Bakı, 2008, s. 134.

[15] Хакен, Г. Синергетика. Иерархии неустойчивостей в самоорганизующихся системах и устройствах/ Г. Хакен. –Москва: Мир. –1985. – с. 17-19.

[16] Пригожин И. Время, хаос, квант: к решению парадокса времени./ И. Пригожин, И.Стенгерс. – Москва: Прогресс. –1994. – с. 58.

kəşfləri sayəsində mürəkkəbliyin yeni forması aşkar edildi[17].

V.S. Styopin sinergetikanın fəlsəfi əsaslarını onun ümumelmi dünya mənzərəsinin nüvəsi olmaq iddiası ilə əlaqələndirir[18].

Azərbaycanda sinergetik paradiqma sahəsində ciddi tədqiqatlar aparılmışdır. Ə. Abasov bəşəriyyətin müasir dünyagörüşü böhranının aradan qaldırılması yolunu yalnız elmə, fəlsəfəyə, dinə və əxlaqa eyni dərəcədə təsir edən formalaşmış stereotiplərin yenidən mənalandırılması kimi insan fəaliyyəti və təfəkkürünün müxtəlif sahələrinin birləşdirilməsində görür[19]. Filosofun fikrincə bəşəriyyətin inkişafının optimal ssenarisinin proqnozlaşdırılması üçün idrakın klassik, qeyri-klassik və postqeyri-klassik növlərini sintez edən vahid ziddiyyətsiz sistemin yaradılması vacibdir[20].

Respublikamızda sinergetikanın ilk tədqiqatçısı kimi Ə. Abbasov müasir dünyada qərarlaşan postneoklassik elmi paradiqmanın mahiyyətinə varmağın, onu mənimsəyərək milli zəmində inkişaf etməyin zəruriliyini vurğulayır[21]. O, mürəkkəblik fəlsəfəsini yalnız elmin və elmi dünyagörüşünün deyil, eyni zamanda bütövlükdə mənəvi inkişafın, insan praktikasının vacib atributu hesab edir [22].

Sinergetikanın insan təfəkküründə və cəmiyyətdəki roluna diqqəti yönəldən F. Qurbanov sinergetikanı müəyyən tarixi mərhələdə dünya sistemində nizamlama parametri rolunu oynaya biləcək təlim kimi səciyyələndirir[23]. Yəni, sinergetika elmi paradiqmasının tətbiq sahəsi insan təfəkküründən başlayaraq cəmiyyətin tale yüklü məsələlərini

---

[17] Курдюмов, С.П. Синергетика — теория самоорганизации./ С.П.Курдюмов, Г.Г. Малинецкий. – Москва: Знание, №2 –1983. – с. 38.

[18] Стёпин, В.С. О философских основаниях синергетики. // –Москва: изд. ЛГИ Синергетика. Будущее мира и России. – 2008. – с.19.

[19] Abasov, Ə. S. Müasir dövrün sosiomədəni problemləri/ Ə. S.Abasov. –Bakı: Səda nəşriyyatı. – 2006. – s.19.

[20] Абасов, А.С. Новейшие направления познания: краткий обзор концепций // – Bakı: Elm və təhsil. Müasir fəlsəfə:İdrakın ən yeni istiqamətləri. –2014. – s.16.

[21] Abbasov, Ə. F. Fəlsəfə, elm, gerçəklik: postneoklassik epitemologiyaya doğru/ – Bakı:Elm. Müasir fəlsəfə və Azərbaycan: Tarix. nəzəriyyə. Tədris. – 2011. – s. 72.

[22] Аббасов А.Ф., Философия сложности: особенности мышления, теории и практики //–Bakı: Elm və təhsil. Müasir fəlsəfə:İdrakın ən yeni istiqamətləri. –2014. – s. 46-85.

[23] Qurbanov F.M. Autopoyezis və sinergetika: social təşəkkül metaforaları/ F.M. Qurbanov. – Bakı: Adiloğlu. – 2007 – s. 467.

əhatə edir. O, postqeyri-klassik rasionallığı elmdaxili faktorlarla sosial-mədəni dəyərləri özündə birləşdirən elmi fəaliyyət hesab edir[24].

T.B. Allahverdiyeva sosial sinergetikanı cəmiyyətin vəhdətdə özünütəşkili kimi, yeni sosial ontologiya, qnoseologiya və metodologiyanın ortaq nəzəri sintezi aspektində qiymətləndirir[25].

Ə. Məmmədov insanın inkişafında biososioloji faktorların qarşılıqlı münasibətlərini tədqiq edir, bioloji amilə sosial amillərin təsirinin vacibliyini vurğulayır[26].

Sinergetikanın mahiyyəti və tətbiqi aspektləri insan amilinin xüsusi rolunu ön plana çəkir. Bu məntiqdən yanaşdıqda tədqiqat işinə fizioloji tədqiqatların cəlb edilməsi, bütöv insan konsepsiyasından istifadə daha məqsədəuyğundur.

Artıq XX əsrin 60-cı illərindən filosoflar insanın kompleks tədqiqi və onun bütöv elmi dərki haqqında düşünməyə başlamışdılar. B.Q. Ananyev yazırdı ki, bütöv insan haqqında nəzəriyyənin yaradılması üçün insanın təbiəti bütün mürəkkəbliyi ilə kompleks şəkildə tədqiq edilməlidir, "*insan ictimai fərd, şəxsiyyət, idrak, əmək və ünsiyyət proseslərinin subyektidir*"[27].

N. A. Loqinova yazır ki, bütöv insan konsepsiyası B. Q. Ananyevin fikrincə, "*psixologiyanı insanşünaslıq sisteminə inteqrasiya etmək və fənlərarası əlaqələri yeniləmək*"dən ibarətdir[28]

F.V. Konstantinov bütöv insan probleminin universal xarakter daşıdığını, problemin həllində fəlsəfə, sosiologiya və psixologiya elmlərinin rolunu ön plana çəkir[29].

İnsanın kompleks tədqiqi sahəsində İ.T. Frolovun tədqiqatları

---

[24] Qurbanov, F. M. Tarixin "postqərb" mərhələsinə keçid. Risklər, ssenarilər və proqnozlar./ F. M. Qurbanov. I cild. – Bakı: Təknur. – 2009, – s. 35.

[25] Allahyarova T.B. Sosial sinergetika cəmiyyət cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi:/fəlsəfə elmləri doktoru dis. avtoreferatı./ – Bakı, 2007. – 53 s.

[26] Məmmədov Ə., Bəşirov R. Müasir təbiətşünaslığa konseptual yanaşma./ Ə. Məmmədov, R. Bəşirov. – Bakl: Elm. – 2001, –s. 653.

[27] Ананьев Б. Г. Комплексное изучение человека как очередная задача современной науки // – Ленинград: Вестник ЛГУ. – 1962. – № 23; с.43.

[28] Логинова, Н. А. Антропологическая психология Бориса Ананьева./ Н. А. Логинова – Москва:Изд.-во «Институт психологииРАН»,– 2016.–с.55

[29] Константинов, Ф. В. Заключительное слово директора Института философии Академии наук СССР, академика Ф.В. Константинова. Сознание: Сб. – Москва. – 1967. – с. 349.

xüsusi yer tutur. İ.T. Frolov insan amilinin tədqiqinə dəyər nöqteyi-nəzərindən yanaşmış və insanın öyrənilməsinə inteqrasiya olunmuş fənlərarası yanaşma konsepsiyasını irəli sürmüşdür[30].

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti bizi əhatə edən dünyaya milli münasibətin, təbiət, cəmiyyət və insan haqqında milli düşüncənin formalaşdırıcısı, milli adət-ənənə və inancların ifadəçisi Azərbaycan şifahi xalq poeziyasıdır. Tədqiqatın predmetini isə Azərbaycan şifahi xalq poeziyasının müasir elmi idrak – sinergetik paradiqmanın prinsipləri əsasında aşkara çıxarılan təkamül və inkişaf qanunauyğunluqları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan xalq poeziyasında qnoseoloji problemlərin müasir elmi idrak prinsipləri ilə araşdırılmasıdır.

Məqsədə çatmaq bir-biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı məsələlərin həllini nəzərdə tutur:

-Müasir elmi idrak nəzəriyyəsi kontekstində xalq poeziyasının mahiyyəti, funksiyaları və milli dünyagörüşünün formalaşmasındakı rolunun müəyyənləşdirilməsi;

- Xalqın düşüncə və davranış tərzinin ifadəçisi və özünüidentifikasiya kriteriyaları sistemi qismində milli mentalitetin və mentallığın strukturu, əsas funksiyaları və tərkib elementlərinin fəlsəfi şərhini vermək;

- Sinergetik prinsiplər sisteminə keçid prosesinin epistemoloji təhlili məqsədi ilə fizioloqların elmi nailiyyətlərinin fəlsəfi-metodoloji funksiyalarını müəyyənləşdirmək;

- Fənlərarası tədqiqatlardakı elmi-fəlsəfi əhəmiyyəti nöqteyi-nəzərindən sinergetik ideya və prinsiplərin nəzərdən keçirilməsi, onların tətbiqi xüsusiyyətlərinin açıqlanması;

-Azərbaycan xalq poeziyasının genezisi qanunauyğunluqlarının fəlsəfi aspektdə təhlili;

a. Azərbaycan xalq poeziyasında rekursiya prinsipinin sistemyaratma funksiyasının elmi-fəlsəfi şərhi;

b. Paralelizm və konvergensiya prinsiplərinin Azərbaycan xalq

---

[30] Фролов, И. Т. Перспективы человека: опыт комплексной постановки проблемы, дискуссии, обобщения/ И. Т. Фролов. – Москва: Изд-во полит. лит. –1983. – с.19.

poeziyasında dinamik bütövlüyü formalaşdıran faktorlar qismində təhlili;

c. Azərbaycan xalq poeziyasında “poetik formul” anlayışının təhlili;

- Xalq poeziyası və funksional sistem arasındakı əlaqələrin ontoqnoseoloji mahiyyətinin əsaslandırılması;
- Azərbaycan xalq poeziyasında optimallıq problemlərinin təhlili;
- Poetik düşüncə və poetik dil münasibətlərinin fəlsəfi aspektlərinin təhlili;
- Azərbaycan xalq poeziyasında poetik refleksiya kateqoriyasının rolunun müəyyənləşdirilməsi;
- Azərbaycan xalq poeziyasında qeyri-xətti düşüncənin fəlsəfi mahiyyətinin şərhi;
- Azərbaycan xalq poeziyasında sinergetik sintezin funksional-struktur aspektlərinin ənənə-varislik-novatorluq üçlüyü kontekstində səciyyələndirilməsi;
- Metaforik ifadələrin yaranmasında sinergizm prinsipi rolunun təhlili;
- Milli konseptlərin fəlsəfi-poetik düşüncədəki rolunun müəyyənləşdirilməsi;
- Azərbaycan xalq poeziyasında insan və gerçəklik münasibətlərinin İslam dini dünyagörüşü kontekstində təhlili;
- Azərbaycan xalq poeziyasında harmoniya fenomeninə münasibətin səciyyələndirilməsi;
- Qloballaşma dövründə İslam əxlaqı və harmonik şəxsiyyət probleminin aktuallığının əsaslandırılması.

**Tədqiqat metodları.** Tədqiqatın nəzəri və metodoloji əsasları tədqiqatın obyekti, məqsədi və vəzifələri ilə müəyyən edilir. Tədqiqat təkamül epistemologiyası, tarixi ilə məntiqi arasında dialektik əlaqə və sinergetik paradiqmanın prinsiplərinə əsaslanır.

Məlumdur ki, təkamül epistemologiyası baxımından idrak prosesi ətraf aləmə uyğunlaşma mexanizmlərindən birini təşkil edir və bizi əhatə edən dünyanın elmi şərhi məsələlərində müasir təkamül nəzəriyyəsinin nəticələri üzərində qurulur.

**Müdafiəyə çıxarılan müddəalar.**

1. Şifahi xalq poeziyası ətraf dünya, gerçəklik haqqında vahid

milli biliklər sistemidir, rasional və irrasionalın sinergiyası ilə gerçəkliyin bütöv dərki sahəsində mühüm rol oynayır. Hələ ilkin dövrlərdən xalqın ana dilini, düşüncə tərzini, insan, cəmiyyət və təbiət haqqında dünyagörüşünü formalaşdırır və onun ilkin poetik ifadəsini verir.

2. Mentalitet xalqın mənəvi, iqtisadi, etnik və tarixi inkişafının bütün mürəkkəbliyini özündə əks etdirən atributlar məcmusu olaraq onun özünüidentifikasiya kriteriyaları sistemi, milli düşüncə tərzi və sosial davranışının milli modelidir. Mentalitetin əsas tərkib elementləri olan stereotiplər sistemi ictimai inikas vasitəsi kimi müəyyən tarixi mərhələdə etnosun dünyagörüşü və milli dəyərlərinin təcəssüm formasıdır.

3. Baş beynin fiziologiyası sahəsində aparılan tədqiqatlar nəticəsində sinergetik paradiqmanın əsas prinsipləri – qeyri-xəttilik, dinamik bütövlük, koherentlik, attraktor və bifurkasiyanın ontoqnoseoloji mahiyyətinin şərhi üçün nəzəri və praktiki zəmin yaradılmışdır.

4. Sinergetikanın sosial-fəlsəfi tədqiqatlarda geniş tətbiqi sinergetik prinsiplərin universallıq və invariantlıq xassələrinə əsaslanır. Sinergetik paradiqmanın özünüinkişaf etdirmə, qeyri-xəttilik, dinamik bütövlük, attraktor, bifurkasiya və koherentlik kateqoriyaları xalq poeziyasının elmi-fəlsəfi tədqiqində metodoloji funksiya daşıyır.

5. Azərbaycan xalq poeziyasının genezisi probleminin sistem-struktur metodu ilə tədqiqi daha perspektivlidir.

Azərbaycan xalq poeziyası planetar strukturludur, kainat, baş beyin və Azərbaycan (türk) xalq poeziyasının topoloji strukturları bir-birinə izomorfdur.

Formayaradıcı prinsiplər kimi paralelizm, konvergensiya və divergensiya xalq poeziyasının təkamülündə mühüm rol oynayır və onun dinamik bütövlüyünü təmin edir.

Poetik formulun idrak prosesindəki rolu onun təyinedici funksiyasıdır, poetik formul xalq poeziyasında fəlsəfi fikrin adekvat ifadə formasıdır.

6. P.K. Anoxinin heteroxroniya, seçim və optimallıq prinsiplərindən təşkil olunmuş sistemogenez konsepsiyası və funksional sistem nəzəriyyəsi Azərbaycan xalq poeziyasının təşəkkülü prosesinin

sinergetik paradiqma ilə tədqiqində mühüm elmi-metodoloji funksiya daşıyır.

7. Optimallıq poetik düşüncə və poetik ifadə formalarının əsas atributlarındandır. İntellektual fəaliyyətin keyfiyyət göstəricilərindən biri kimi optimallıq daha çox qənaət prinsipi formasında istifadə olunur. Xalq poeziyasının formalaşma prosesi sadədən mürəkkəbə prinsipi üzərində qurulmuşdur, optimal formasına tədricən yaxınlaşır, bu məntiqlə A.N. Kolmoqorovun qnoseoloji prinsipinə uyğun gəlir.

8. Poetik düşüncə ilə poetik dil arasındakı qarşılıqlı təsir və münasibətlər metaforiklik xassəsindən yaranır. Əgər poetik düşüncə transsendensiya sayəsində insan mövcudluğundan "kənarda" olana yönəlirsə, onda poetik dil "ifadə edilə bilməyəni ifadə etmək" prinsipi baxımından fikri yalnız ifadə etmir, həm də onu inkişaf etdirib genişləndirir.

9. Azərbaycan xalq poeziyasında poetik refleksiya el şairləri nəsillərinin yaşadığımız dünya, bu dünyada insanın yeri, insan həyatının mənası və poetik yaradıcılıq haqqında xalq poeziyası prinsipləri baxımından düşüncələri sistemidir.

10. Xalq poeziyası bizi əhatə edən gerçəkliyin ilk idrak metodlarından biri kimi gerçəklikdəki obyektlərarası qeyri-xətti əlaqə və münasibətlərin poetik inikasını verir. Bu poetik inikas müxtəlif transformasiyalardan ibarət çoxmərhələli mürəkkəb bir prosesdir.

11. Azərbaycan(türk) xalq poeziyasında sinergetik sintezi ənənə-varislik-novatorluq üçlüyünün nəticəsi kimi səciyyələndirmək olar.

Sinergetik sintezin nümunələri XV əsrdən başlayaraq müxtəlif şeir formaları və azadlıq mübarizəsinə həsr olunmuş dastanlarda xalq təfəkküründəki oyanış və özünüdərkin inkişafı aspektində yaradılmışdır.

12. Poetik metafora insan düşüncəsinin yaranışdan qeyri-xətti sistemli xarakterini müəyyən etmişdir. Bu nöqteyi-nəzərdən metaforanın sinergetik paradiqma prinsipləri ilə dinamik sistem kimi araşdırılması onun yeni xüsusiyyətlərini aşkar etməyə imkan verir.

13. Milli konseptlər milli düşüncənin idrak, etika və estetika aspektlərini əhatə edir və xalqın düşüncə tərzindəki unikallığın ifadəçisidir. Konseptlərin tədqiqi xalq təfəkküründə konseptuallaşdırma prinsiplərini müəyyən etmək baxımından metodoloji əhəmiyyət kəsb edir.

14. Milli və dini dünyagörüşləri zəminində müəyyən edilən insan və gerçəklik münasibətlərinə məişət məsələlərindən başlayaraq kainatın yaranmasına qədər mövzular spektri daxildir. Bu səbəbdən xalq poeziyasında insan və gerçəklik münasibətlərinin dini baxışlarla tədqiqi milli düşüncənin özünəməxsus cəhətlərini aşkar etməyə töhfə verə bilər.

15. Harmoniya kateqoriyasına elmi-fəlsəfi və dini baxışların müqayisəli təhlili harmoniyanın mürəkkəb bir fenomen olaraq daha dərindən dərkinə imkan verir. Xalq poeziyasında harmoniya haqqında fikirlər İslam təliminə uyğun İlahi nizamla əlaqələndirilir.

16. İslam təliminə əsasən əməllə niyyətin, zahirlə batinin, mənəvi şüurla davranışın harmonik vəhdəti şəxsiyyətin daxili bütövlüyünü, onun mənəvi inamının formalaşmasını təmin edir. Xalq poeziyasında bu prinsiplərin vəsfi əsrlər boyu kamil şəxsiyyət probleminin həllində əhəmiyyətli rol oynamışdır.

**Tədqiqatın elmi yeniliyi.**

1. Varlığın ilk idrak formalarından biri qismində şifahi xalq poeziyasının milli fəlsəfi düşüncə mədəniyyətinin formalaşmasında rolu əsaslandırılmışdır. Gerçəkliyə milli poetik-mənəvi münasibət ilk bədii təcəssümünü xalq poeziyanda tapmışdır

2.Mentalitetin strukturu, funksiyası və tərkib elementləri təhlil edilmiş, onun qeyri-xətti dinamik sistem kimi insanların dəyişən mühitə adaptasiyasını təmin etməsi nəzərə çatdırılmışdır.

Etnik stereotiplər ilk növbədə xalq poeziyasında, milli frazeoloji vahidlərdə və aforizmlərdə öz ifadəsini tapır.

3. İlk dəfə olaraq İ.M. Seçenovdan başlayaraq P.K. Anoxinə qədər fizioloqların əsas konsepsiyalarında aşkar edilən sinergetik kateqoriyaların sistemli tədqiqinə cəhd edilmişdir. Sinergetik kateqoriyaların definisiyasının konseptual məzmunundakı tamlıq dərəcəsi müəyyən edilmiş, mövcud definisiyalar əsasında ilkin ümumiləşdirmələr aparılmış və fiziologların sinergetik prinsiplərə verdiyi töhfə əsaslandırılmışdır.

4. Fənlərarası tədqiqat sahəsi kimi sinergetikanın formalaşmasında xidmətləri olan elmi məktəblərin konsepsiyaları nəzərdən keçirilmiş, sinergetik paradiqmanın elmi-fəlsəfi şərhinə cəhd edilmişdir.

5. Azərbaycan xalq poeziyasının genezisi və sistem-struktur

məsələlərinin aşağıdakı aspektləri tədqiq edilmişdir:

- Azərbaycan(türk) xalq poeziyasının genezisində rekursiya və konvergensiya prinsiplərinin rolu müəyyənləşdirilmişdir.

- İlk dəfə olaraq Azərbaycan(türk) xalq poeziyasının topoloji strukturu təklif edilmiş, kainat, baş beyin və Azərbaycan xalq şeirinin topoloji strukturları arasındakı izomorfluq əsaslandırılmışdır.

- Poeziyanın canlı orqanizmə məxsus atributlarını əsas götürərək canlı orqanizm və xalq poeziyasının təkamülündə konvergensiya, divergensiya və paralelizm prinsiplərinin daşıdığı funksiyalara komparativistik təhlil verilmişdir.

- Müəllif poetik formulun xalq poeziyasındakı müdrik fikirlərin daha adekvat, dolğun və lakonik ifadə vasitəsi funksiyasına diqqəti yönəltmişdir. Bu mənada poetik formulun koqnitiv proseslərdəki rolu ön plana çəkilir.

6. İlk dəfə olaraq xalq poeziyası ilə P.K. Anoxinin funksional sistem nəzəriyyəsi arasındakı korrelyasiyanı müəyyən edən qanunauyğunluqların ontoloji və qnoseoloji mahiyyəti müəyyənləşdirilmiş və əsaslandırılmışdır. Funksional sistem nəzəriyyəsinin müddəaları kontekstində canlı orqanizmin təkamülü ilə xalq poeziyasının genezis qanunauyğunluqları arasında əlaqə üzə çıxarılmışdır.

7. İlk dəfə olaraq xalq poeziyasında optimallıq problemi qoyulmuşdur. Xalq poeziyasında genezisin sadədən mürəkkəbə qanununa tabe olduğunu əsas götürərək müəyyən edilmişdir ki, Azərbaycan(türk) xalq poeziyası öz inkişafı yolunda tədricən optimal formasına yaxınlaşır, bu isə mahiyyətcə A.N. Kolmoqorovun qnoseoloji prinsipinə uyğundur.

8. Poetik düşüncə və poetik dil əlaqələrinin fəlsəfi aspektləri təkamül epistemologiyası kontekstində araşdırılmışdır. Poetik düşüncə və poetik dil münasibətlərinin tədqiqi insan və ətraf dünya münasibətləri, həmçinin onun ifadə formalarının təkamül yollarına aydınlıq gətirir.

9. Azərbaycan xalq poeziyasında poetik refleksiya kateqoriyasının əsas funksiyalarının şərhinə cəhd edilmişdir.

Poetik refleksiya poeziyada milli varlıq, insanların dünyabaxışları və mənəvi-əxlaqi əqidəsinin formalaşması, şairlərin öz yaradıcılığına

tənqidi münasibəti, poeziyanın inkişaf yollarının axtarışı haqqında xalq poeziyası klassiklərinin nəzəri-kateqoriyal mahiyyət daşıyan fikirləridir.

10. Azərbaycan xalq poeziyasında qeyri-xəttiliyin qaynaqları aşkar edilmişdir. Bunlardan biri ətraf gerçəklikdə mövcud olan qeyri-xəttilikdir, ikincisi poetik düşüncədəki qeyri-xəttilikdir, poetik düşüncənin poetik dilə transformasiyası da qeyri-xətti xarakter daşıyır.

11. İlk dəfə olaraq Azərbaycan(türk) xalq poeziyasında sinergetik sintezin struktur və konseptual aspektləri araşdırılmışdır.

Sinergetik sintez fəlsəfi kateqoriya kimi təhlil edilmiş, xalq poeziyasında sinergetik sintezin nümunələri aşkar edilmiş və gerçəkliyin bütöv dərkində rolu dəyərləndirilmişdir.

12. Metaforanın prosessuallığı, yeniliyə meylliliyi və konstruktivliyi ilə sinergetik paradiqmanın müddəaları arasında paralellər aparılmış, metaforaya məxsus sinergetik atributlar tədqiq edilmişdir. Metaforada idrak prosesinin qeyri-xəttiliyindən yaranan struktur qeyri-xəttiliyi diqqətə çatdırılmışdır.

13. Xalq təfəkküründə konseptuallaşdırma prinsiplərinin tədqiqində konseptlərin rolu diqqət mərkəzinə çəkilmişdir.

Xalq poeziyasında konseptual fraktallar üzə çıxarılmış və konseptual fraktallarda etnosun gerçəkliyə sinergetik baxışlarının ilkin ifadə forması funksiyası əsaslandırılmışdır.

14. İslam dini dünyagörüşü kontekstində insan və gerçəklik münasibətlərinin xalq poeziyasında təcəssüm formaları nəzərdən keçirilmişdir. El şairlərinin dünyagörüşünü əsasən İslam təlimi təşkil etdiyindən xalq poeziyasında insan və gerçəklik münasibətlərinin əxlaqi dəyərlər sistemi üzərində qurulması vurğulanmışdır.

15. Harmoniya kateqoriyasının elmi-fəlsəfi və dini baxışlardan komparativistik təhlili verilmiş, harmoniyanın dialektik təbiətinə və insan-cəmiyyət-kainat iyerarxiyasında təcəssüm formalarına nəzər salınmış, aşıq ozanların yaradıcılığında harmoniya haqqında düşüncələrin elmi-fəlsəfi mənası şərh edilmişdir.

16. Xalq poeziyası nümunələri zəminində islam əxlaqı və harmonik şəxsiyyət problemi araşdırılmış və bütöv kamil şəxsiyyətin yetişdirilməsində xalq poeziyasının önəmli rolu əsaslandırılmışdır.

**Təqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın elmi əhəmiyyəti ondan ibarətdir ki, ilk dəfə olaraq postqeyri-klassik

paradiqmanın prinsipləri və baş beynin fiziologiyası sahəsində alınan elmi nəticələrin birgə tətbiqi ilə Azərbaycan xalq poeziyasında idrak məsələləri tədqiq edilmiş, xalq poeziyasının genezisi, strukturundakı dinamizm, qeyri-xəttilik, fraktallıq və bütövlük kimi atributlar təhlil edilmiş, milli-fəlsəfi düşüncənin formalaşmasında rolu araşdırılmışdır.

Dissertasiya Azərbaycan(türk) xalq poeziyasının postqeyri-klassik paradiqma prinsipləri ilə tədqiqi sahəsində ilk tədqiqat işidir və bu sahədə gələcək tədqiqatlar üçün elmi mənbə kimi istifadə edilə bilər. Dissertasiya işinin nəticələri təhsil sistemində Azərbaycan folklorunun tədrisi sahəsində bakalavr və magistrlərin hazırlanması üçün yararlıdır.

Dissertasiya işinin müddəaları türkdilli xalqların şifahi xalq poeziyasının tədqiqi üçün metodoloji əhəmiyyət daşıyır .

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın işlənilməsi zamanı əldə edilmiş qənaətlər Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq yerli və beynəlxalq nəşrlərdə çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun “İdrak nəzəriyyəsi və məntiq” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (22860), I fəsil ( 46196), II fəsil (63613), III fəsil (115036 ), IV fəsil (105471), V fəsil ( 45032), Nəticə (5886) və Ədəbiyyat siyahısından ibarət olmaqla 404094 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin “Giriş” hissəsində mövzunun aktuallığı və əhəmiyyəti əsaslandırılmış, işlənmə dərəcəsi araşdırılmış, tədqiqatın obyekti, məqsəd və vəzifələri müəyyən edilmiş, nəzəri-metodoloji əsasları, elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və işin aprobasiyası şərh edilmişdir.

Dissertasiyanın birinci fəsli **“Azərbaycan xalq poeziyası və milli fəlsəfi düşüncə”** adlanır. Birinci fəslin **“ Azərbaycan xalq poeziyası fəlsəfi tədqiqat obyekti qismində”** adlı birinci paraqrafında xalq poeziyasının əsas qaynaqları və kateqoriyaları təhlil edilir.

Yaşadığımız qloballaşma dövründə obyektiv olaraq insanların ənənəvi həyat və düşüncə tərzi dəyişir, mövcud dəyərlərə münasibətdə ənənəviliklə yenilik arasındakı ziddiyyətlərlə qarşılaşırıq. Milli mədəniyyət məhz bu ziddiyyətlərin dialektikası əsasında inkişaf edir.

Milli mədəniyyət xalqın əsrlər boyu yaratdığı və nəsildən-nəsilə ötürdüyü maddi və mənəvi sərvətidir, onun bütövlüyünün atributudur. Milli mədəniyyətin nüvəsi şifahi xalq poeziyası, folklordur.

Azərbaycan folklorunun ana kitabı "Dədə Qorqud" dastanlarıdır. "Dədə Qorqud" dastanları "*milli ədəbiyyat tariximizin start nöqtəsi*"[31], "*Azərbaycan xalqının tarixinin, etnik yaddaşının, arxaik təfəkkürünün güzgüsü*"[32] kimi böyük əhəmiyyət kəsb edir.

Milli fəlsəfənin əsas problemlərindən biri milli dövlətçilik düşüncələrində təkamül və inkişafı mərhələlərinin təhlilidir. Bu nöqteyi-nəzərdən "Dədə Qorqud" dastanları *"milli dövlətçilik təfəkkürünün canlı abidəsi"*dir[33].

Azərbaycan xalqının mənəviyyat dünyası, həyat və düşüncə tərzinin, ümumən milli varlığının formalaşdırılması və əks etdirilməsində ən etibarlı mənbə "Dədə Qorqud" dastanlarıdır.

"Dədə Qorqud" dastanlarında oğuz türklərinə mənsub "*vətən, din, hürriyyət, eşq, sədaqət və fədakarlıq hissləri*"[34] real hadisələrin təsvirində öz inandırıcı əksini tapmışdır. Dədə Qorqud ilk ozanımızdır, dastanın özü isə qədim mənbə kimi "*türkdilli xalqların bədii təfəkkürü və dilinin təkamülündə böyük rol oynamışdır*"[35].

"Dədə Qorqud" dastanları *"müasir azərbaycanlıların*

---

[31] Həbibbəyli, İ. "Kitabi-Dədə Qorqud": yazılı epos və ya epopeya/İ. Həbibbəyli. – Bakı: Elm. – 2020. s. 13.

[32] Əliyev, H. Milli varlığımızın mötəbər qaynağı // Azərbaycan qorqudşünaslığı. Elmi redaktoru: Akademik Muxtar İmanov – Bakı: Elm və Təhsil. – 2020. – 364 s.24.

[33] Həbibbəyli, İ. "Kitabi Dədə Qorqud" və Azərbaycan dövlətçiliyi: Qalın oğuz eli// – Bakı:AMEA-nın xəbərləri, Humanitar və ictimai elmlər, 2020, c. LXXVI, № 3-4, s. 84-89.

[34] Rəsulzadə M. Ə. "Dədə Qorqud" dastanları// Azərbaycan qorqudşünaslığı. Elmi redaktoru: Akademik Muxtar İmanov Bakı: Elm və Təhsil. – 2020. – s. 34.

[35] Zeynalov, F. Əlizadə, S. Tükənməz xəzinə// Azərbaycan qorqudşünaslığı. Elmi redaktoru: Akademik Muxtar İmanov Bakı: Elm və Təhsil. – 2020. – 364. – s. 213-214.

*təfəkkürünü formalaşdırmışdır*"[36].

Başlanğıcını "Dədə Qorqud" dastanlarından götürən Azərbaycan folkloru uzun bir təkamül yolu keçmiş və xalqın dünyagörüşünü, dəyər yönlərini, dünya, təbiət, cəmiyyət haqqında düşüncələrini ehtiva edən etibarlı və zəngin mənbəyə çevrilmişdir

Şifahi xalq ədəbiyyatı öz mənbəyini mifologiyadan götürür. Mifoloq F. Kessidi mifi təbiət və ictimai həyatın özünəməxsus obrazlı, hissi, sinkretik təsəvvürü formasında səciyyələndirir və ictimai şüurun ən qədim forması kimi qiymətləndirir[37].

Şifahi xalq yaradıcılığında mifdən keçən atributları iki qrupa ayırmaq olar: 1. Dünyagörüşləri sistemi, aksioloji aspekt, irrasionallıq kimi nəzəri əhəmiyyət kəsb edən xassələri. Belə ki, mifologiya ibtidai insanların gerçəklik, ətraf dünya haqqında düşüncələr sistemi kimi qəbul edilir. 2. Mifin strukturundakı sintezin analiz üzərindəki üstünlüyü, sinkretizm, fraktallıq, çoxlaylılıq, iyerarxiklik.

Bu atributlar, fikrimizcə, şifahi xalq poeziyasının tədqiqat istiqamətlərini müəyyən edir.

Poeziya hər bir xalqın ilk danışıq dilidir. Bu fikri Hegel onunla əsaslandırır ki, dil hələ formalaşmadığı dövrdə şeir üslubu öz həyatiliyini qazanır. Dil poeziyanın sayəsində inkişaf edir[38]. Varlığa ilk dəfə poeziya əsərlərində ad verilmiş, varlığın ilkin idrak forması şeir dili ilə ifadə edilmişdir.

Nəsillərdən miras qalan poetik ümumiləşdirmələri, düşüncə, qavrama, ümumən yaradıcılıq alqoritmlərini mövcud elmi konsepsiyalara transformasiya etməklə xalq poeziyasındakı idrak məsələlərini daha dərindən şərh etmək olar. Qeyd edək ki, bu poetik ümumiləşdirmələr adi şüur, sağlam düşüncə və xalq hikməti kateqoriyaları üzərində qurulur. Bununla yanaşı, şifahi xalq poeziyasının fəlsəfi konsepsiyalarla tədqiqində idrak, etik, estetik

---

[36] Abdulla, K. Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı,– Bakı: ADA universiteti, –2020, – s. 19.

[37] Кессиди, Ф. От мифа к логосу: Становление греческой философии/ Ф. Кессиди. – Санкт-Петербург: Алетейя. –2003. – с.45-46.

[38] Гегель, Г. В. Ф. Лекции по эстетике:[в 2-х томах]/ Г.В.Ф. Гегель. – Санкт-Петербург: Наука. –1999. Т.2. – с.338-339.

aspektlərin birgə, kompleks şəkildə araşdırılmasını və aksioloji aspektin ətrafında birləşdirilməsini daha məqsədəuyğun hesab edirik.

Elmi biliklərin ilkin formaları öz başlanğıcını adi şüurdan götürür. Adi şüurun ictimai şüurla fərdi şüur, dünyanın mifoloji və elmi inikası, şüurdan kənarla refleksiv şüur arasında mediator funksiyasını daşıdığını söyləyə bilərik[39].

Sağlam düşüncə intuitivlik, bilavasitəlilik hesabına "hər şeyin hər şeydə olması" prinsipinə uyğun bir sistem kimi işləyir, qeyri-xəttidir və konstruktları isə aşkar intuitiv həqiqətlərdir[40]. Deməli, sağlam düşüncə üçün qeyri-xəttilik və fraktallıq xasdır.

Adi şüurun və sağlam düşüncənin qanunauyğunluqları əsasında xalq hikməti yaranır və inkişaf edir. Xalq hikməti gerçəkliyin dərkində özünəməxsus qnoseoloji imkanlara malikdir. Xalq poeziyasında ümumiləşdirmə vasitələrindən biri də mifoloji təfəkkürdən keçən irrasionallıqdır.

Milli fəlsəfi düşüncənin zəruri tərkib hissəsi kimi dini mənsubiyyət ozan aşıqların yaradıcılığında aparıcı motivlərdən biridir. Təbiət, cəmiyyət və insan həyatının mənası haqqında fikirlərinin arqumentləşdirilməsi üçün ozan aşıqlarımız müntəzəm şəkildə müqəddəs Quran ayələrinə istinad etmişlər.

Nəticə qismində aşağıdakıları qeyd etməyi məqsədəuyğun hesab edirik[41]:

1.Gerçəkliyə poetik-mənəvi münasibət insanın dünyagörüşünü formalaşdıran ilk faktorlardan biridir, poeziya maddi və mənəvi dünyaya münasibətin ilk ifadə formasıdır.

2.Şifahi xalq poeziyası varlığın ilk idrak formalarından biri kimi

---

[39] Улыбина Е.В. Психология обыденного сознания/ Е.В.Улыбина. – Москва: Смысл. –2001. – с.91.

[40] Мигуренко Р.А. Здравый смысл как предмет философской рефлексии. – Томск:Вестник Томского государственного университета. –2013. № 370. –с.44.

[41] **Fəsildə əldə olunmuş elmi nəticələr haqqında bax:** Quliyev, F.A., Folklor fəlsəfi təqiqat obyekti kimi // − Bakı: Mədəniyyət dünyası, − 2021. XXXX buraxılış, − s.128-140; Quliyev, F.A., Mentallıq və mentalitet sinergetik paradiqmalar kontekstində, //−Bakı: Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmlər seriyası,− 2017. №4, − s. 86-98; Кулиев, Ф.А., Национальные стереотипы: подходы к определению и теоретико-практическое значение в национальной культуре// − Bakı: Geostrategiya,− 2023, №05(77),− с. 163-167.

milli fəlsəfi düşüncə mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynayır.

Birinci fəslin **"Milli mentalitet: strukturlaşma, funksiyası və tərkib elementləri"** adlanan ikinci paraqrafı milli mentalitet və etnik stereotiplərin təhlilinə həsr olunub.

Milli mədəniyyətə yenidən qayıdış, onun kompleks tədqiqi milli mentalitet, mentallıq və etnik stereotip kateqoriyaları ilə sıx bağlıdır. Mentalitet bir termin kimi ilk dəfə fransız etnoloqu L. Levi-Bryulun "İbtidai mentalitet" kitabında işlədilmişdir. L. Levi-Bryula görə mücərrəd düşüncəni və mülahizəni istisna etmə ibtidai xalqların düşüncəsinə xas əsas əlamətdir[42].

N.İ. Qubanov və N.N. Qubanov mentalitetin sosial tərəqqiyə təkan verən amil, eyni zamanda çox böyük və sürətli sosial çevrilmələri ləngidən amil kimi ikili xassəsini qeyd etməklə, mentaliteti "*qrupun və şəxsi mədəniyyətin özəyi və subyektin strateji mədəni proqramı*" [43] kimi qəbul edir.

Azərbaycan xalqının mentalitetini tədqiq edən H. Quliyev göstərir ki, xalq mədəniyyəti öz kökləri ilə mentallığın görünməyən dərinliklərinə gedib çıxır, onun nüvəsini xüsusi məna kəsb edən əsas arxetiplər təşkil edir[44].

Bir sıra tədqiqatlarda mentalitet və mentallıq kateqoriyalarının sistem xarakteristikası ön plana çəkilmişdir.

V. Maslovaya görə mentallıq şüurlu və şüurdankənar psixoloji yönəlişliklər, fərd və ya müxtəlif sosial qrupların düşüncə və hərəkət tərzinin məcmusundan ibarətdir[45].

Qnoseoloji baxımdan mentallıq sosial həyatda uzun müddətə etnosun düşüncə və davranışlarını formalaşdırmış alqoritmlər sistemidir.

Mentalitetin tərkib elementləri stereotiplərdən ibarətdir. Stereotip

---

[42] Леви-Брюль, Л. Первобытный менталитет/ Л. Леви-Брюль. –Санкт-Петербург: «Европейский Дом».– 2002.– с.18.

[43] Губанов, Н. И., Губанов Н. Н. Роль менталитета в развитии общества: социокультурная гипотеза //–Москва. Вестник славянских культур. – 2017. Т. 43. – с.44.

[44] Кулиев, Г. Архетипичные азери. Лики менталитета/Г. Кулиев – Баку: "ALTUN KİTAB" ММС. – 2019. – с.12.

[45] Маслова, В.А. Лингвокультурология/ В.А.Маслова. – Москва: Издательский центр «Академия», 2014. с. 92.

anlayışını elmə Amerika sosioloqu U. Lippman gətirmişdir. U. Lippman stereotipin idrak forması funksiyasını, dünyanın dərki prosesində enerji sərfinə qənaət xassəsini, insanın cəmiyyətdəki mövqeyini və ənənələri qorumaq üçün əsas vasitə olduğunu yazır[46].

Konseptual baxımdan isə sosial stereotip "*sosial obyektin emosional və dayanıqlı, sxemləşdirilmiş, standartlaşdırılmış obrazı və ya təsəvvürüdür*"[47]. Sosial stereotip çoxaspektli metaforik anlayışdır, stereotipin definisiya məsələsində mütəxəssislər arasında yekdil rəy yoxdur. L. Maksimov sosial stereotiplərin tərkibini koqnitiv və dəyər yönlü olmaqla iki elementdən təşkil olduğu qənaətindədir[48].

Stereotipləşdirmə mədəniyyətlərarası əlaqələrin genişləndiyi bir dövrdə, daha yaxın ünsiyyətə girmək insanların özünü və başqalarını daha yaxından tanımağa kömək edir, "*hətta qanuni rasional yanaşmaya çevrilir*"[49].

Mentalitet etnosun dünyagörüşləri, əxlaq normaları, davranış stereotipləri, dini mənsubiyyəti, mədəniyyəti və incəsənətini xarakterizə edən bir sistem anlayışıdır.

Mentallıq fərd və sosial qrupun düşünmə, hiss etmə və gerçəkliyi qavrama təlimatları, şüurun sosial-mədəni avtomatizmləri sistemidir.

Etnik stereotiplər ontoloji baxımdan ictimai inikas vasitəsi olaraq etnosun müəyyən tarixi mərhələdə formalaşmış dünyagörüşü, dəyər yönünün təcəssüm formasıdır, milli xarakteri və sosial davranışın milli modelini müəyyən edir.

Etnik stereotiplər milli mentalitetin nüvəsi, onun təməl elementləridir, etnosun özü və ya digər etnos haqqında ümumiləşdirilmiş, dəyişməyə davamlı, sadələşdirilmiş formada təsəvvürləridir.

---

[46] Липпман, У. Общественное мнение./ У. Липпман.– Москва: Институт Фонда «Общественное мнение». – 2004.– с. 108-109.

[47] Философский энциклопедический словарь.–Москва: Советская энциклопедия.– 1989.– с.626-627.

[48] Максимов, Л.В. О некоторых стереотипах теоретической этики / – Москва: Этическая мысль. –2016. т. 16. № 2. –с. 21.

[49] McFarlane, A. Donovan. A Positive Theory of Stereotyping and Stereotypes: Is Stereotyping Useful? / –Edgecliff NSW: Journal of Studies in Social Sciences. ISSN 2201-4624 Vol. 8. Number 1, – 2014, – p.140.

Mövcud münasibətlərin şərhi, sosial mədəni informasiyanın təsnifatı və nizamlanması, tarixi-mədəni təcrübənin toplanması və gələcək nəsillərə ötürülməsi, davranış modelləri və standartların işlənib hazırlanması məqsədi ilə stereotipləşdirmə prosesindən istifadə edilir.

Dissertasiyanın **"Azərbaycan xalq poeziyası və postqeyri-klassik paradiqma"** adlı ikinci fəsli iki paraqrafdan ibarətdir: **"Sinergetik prinsiplərə keçidin epistemoloji təhlili"** və **"Postqeyri-klassik paradiqma: əsas ideya və prinsipləri".**

**"Sinergetik prinsiplər sisteminə keçid prosesinin epistemoloji təhlili"** adlı paraqrafda aşağıdakı məsələlər nəzərdən keçirilir: 1. Xronoloji ardıcıllıqla hər bir fizioloqun tədqiqatlarında sinergetikanın nəzərdən keçirilən prinsip və kateqoriyalarını araşdırmaq. 2. Bu prinsip və kateqoriyaların formalaşma yollarını müəyyənləşdirmək. 3. Baxılan prinsip və kateqoriyaların definisiyalarında konseptual məzmunun tamlığını qiymətləndirmək və ilkin ümumiləşdirmə aparmaq.

Sinergetikanın fəlsəfi və metodoloji əhəmiyyətə malik prinsip və kateqoriyaları uzun bir formalaşma yolu keçmişdir və fərqli epistemoloji köklərə malikdir, bu baxımdan sinergetik prinsip və kateqoriyaların tədqiqi fəlsəfi-metodoloji əhəmiyyət kəsb edir.

"Sinergetika" sözü XIX əsrin sonunda ingilis fizioloqu C. Şerrinqton tərəfindən elmə gətirilmişdir. O, əzələ hərəkətlərinin idarə edilməsində sinir sisteminin (onurğa beyni) sinergetik, uyğunlaşdırılmış birgə təsirlərinin koordinasiyasını üzə çıxardı[50].

İnsan beyni açıq qeyri-xətti sistemdir, mürəkkəb və mükəmməl sinergetik tədqiqat obyektidir və beyin fəaliyyətinin, xüsusən də ali sinir sisteminin fəaliyyəti qanunları haqqında elm məhz fizioloqların tədqiqatları nəticəsində yaradılmışdır.

Beyin fiziologiyası sahəsində ilk elmi araşdırma İ.M. Seçenovun adı ilə bağlıdır. İ.M. Seçenov "Baş beynin refleksləri" adlı fundamental əsərində göstərir ki, refleks yalnız fizioloji hərəkətləri deyil, psixoloji hadisələri də əhatə edir, yəni şüurlu və şüurdankənar həyatın bütün

[50] Шеррингтон, Ч. Интегративная деятельность нервной системы/ Ч.Шеррингтон. –Ленинград: Наука. –1966. – с.174.

hərəkətləri refleksin elementləridir[51].

Baş beyin fəaliyyətinin sistemli şəkildə tədqiqi böyük rus fizioloqu İ.P. Pavlovun əsərləri ilə başlanır. İ.P. Pavlov canlı orqanizmin fizioloji proseslərini onu xarici mühitlə əlaqədə, yəni, insan-təbiət sistemi ilə əlaqəli şəkildə öyrənmiş, ən başlıcası orqanizmin bütövlüyünə diqqət yetirmiş və onun bütövlüyü təlimini işləyib hazırlamışdır. İ.P. Pavlov məşhur "Zəka haqqında" məqaləsində kəşf sevincinin tədqiqatçını yeni zirvələrə ruhlandıran müsbət bir impuls kimi əhəmiyyətini qeyd edir [52].

A.A. Uxtomskinin definisiyasına görə dominantlıq müəyyən bir həlledici akta yönəlmiş zəncirvari refleksdir[53], başqa sözlə beyin qabığındakı hakim qıcıqlanmalar ocağıdır.

P.K. Anoxinə görə funksional sistem hər hansı uyğunlaşma fəaliyyətlərinə nail olmaq üçün dinamik inkişaf edir və funksional sistemlərin arxitektonikası mərkəz-periferiya ideyası üzərində qurulmuş xüsusi strukturlardan təşkil olunur[54].

Yuxarıda göstərilənlərə əsaslanaraq, fizioloqların sinergetik prinsip və kateqoriyaların, onların fəlsəfi şərhlərinin formalaşmasına verdiyi töhfə düşüncə mədəniyyəti ənənəsindəki kardinal dəyişikliyə nəzərə çarpacaq dərəcədə təsir göstərdiyi qənaətinə gəlmək olar[55]. Fizioloqların ideyaları fənlərarası yanaşmanın vacib komponentləri kimi insanın hərtərəfli tədqiqinə sistemli yanaşmanın metodoloji əsaslarına

---

[51] Сеченов, И.М. Рефлексы головного мозга: Попытка свести способ происхождения психических явлений на физиологические основы/ И.М. Сеченов. –Москва: Изд. стереотип. URSS. –2023. с.122.

[52] Павлов, И.П. Естествознание и мозг: /Сборник главных трудов великого физиолога./ И.П.Павлов. – Москва: Ко Либри, Азбука-Аттикус. –2023. – с.583-584.

[53] Ухтомский, А.А. Доминанта./А.А. Ухтомский. –Санкт-Петербург:Питер. – 2022. – с.52.

[54] Анохин, П.К. Узловые вопросы теории функциональной системы/ П.К. Анохин. – Москва: Наука. –1980. – с.154.

[55] **Fəsildə əldə olunmuş elmi nəticələr haqqında bax:** Guliyev, F. A., Logical and methodological analysis and the foundations of the transition from the study of the brain's physiology to synergetic principles// − Hradec Králové: AD ALTA-Journal of interdisciplinary research. –2021. Special Issue (11/01-XVII.) –pp. 134-138; Quliyev, F.A., Sinergetik paradiqma elmi tədqiqatın metodoloji prinsipi kimi// − Bakı: Əmək və sosial münasibətlər, − 2021. № 2(16), −s.47-57.

çevrilmişdir.

**“Postqeyri-klassik paradiqma: əsas ideya və prinsipləri”** adlı paraqrafda sinergetikanın əsas kateqoriyaları təhlil edilmiş və xalq poeziyasındakı rolu göstərilmişdir.

Sinergetikanın bir elmi-fəlsəfi metodologiya kimi formalaşmasında alman fiziki H. Haken və belçikalı kimyaçı, Nobel mükafatı laureatı İ. Priqojinin fundamental tədqiqatları mühüm rol oynamışdır.

H. Haken sinergetikanı sistemli təhlilin tərkib hissəsi hesab edir, sistemin zamana görə təkamülünü sistem fəaliyyətinin ümumi prinsipləri, ilk növbədə ixtiyari təbiətli sistemlərdə kooperativ prosesləri özünütəşkıl prinsipi əsasında tədqiq edir[56].

H. Haken göstərir ki, sinergetika bir tədqiqat metodologiyası kimi müxtəlif konsepsiya və nəzəriyyələrdən, məxsusi olaraq bifurkasiya, katastrof, xaos və dinamik sistemlər nəzəriyyəsinin əsas anlayışlarından istifadə edərək dinamik obyekt və proseslərin tədqiqində öz yanaşmalarını inkişaf etdirir[57].

İ. Priqojinə görə sinergetikanın əsas anlayışı dissipativ strukturlardır. Dissipativ strukturlar, maddənin qeyri-tarazlıq vəziyyətlərində sərbəst enerji selini induksiya edən yeni vəziyyətidir. Yüksək qeyri-tarazlıqda olan sistemlərin dinamikasını tədqiq edərək İ. Priqojin “*yeni makroskopik strukturlar fluktuasiyanın hesabına yaranır*” ideyasını irəli sürür: “*Dayanıqsızlığa fluktuasiyanın nəticəsi kimi baxmaq olar*”[58].

S. Kurdyumov və Y. Knyazyevanın tədqiqatları əsasında yeni fərziyyə irəli sürülmüşdür. Tədqiqatçılar müəyyən etmişlər ki, güclü qeyri-xətti açıq mühitlərdə dalğaların yayılma və yığılmasının HS – və kəskinləşməylə müşayiət olunan LS-rejimlər)bir-birini əvəz etməsi İn—Yan Çin simvolu ilə dərin analogiya yaradır. LS-rejimdə proseslər kəskinləşmə anına yaxın çox böyük sürət alır, HS-rejimi mərhələsində

---

56 Хакен, Г. Синергетика: иерархии неустойчивостей в самоорганизующихся системах и устройствах. – Москва: Мир.–1985.– с.17-19.

57 Haken Hermann, Portugali Juval. Synergetic cities : information, steady state and phase transition : implications to urban scaling, smart cities and planning. – Cham : Springer, – 2021. – p. V.

58 Пригожин, И. От существующего к возникающему: Время и сложность в физических науках. Москва: Наука. – 1985. – с.327.

onların sürəti əhəmiyyətli dərəcədə azalır, soyuma dalğası qeyri-məhdud sahəyə yayılır[59].

R. Baransevə görə asimptotika ilə sinergetikanı doğmalaşdıran, problemlərin həllinə onların yanaşma uyğunluğu, "*sabitdən dəyişməyə: limitdən - yaxınlaşmaya, varlıqdan - təşəkkülə, tamlıqdan - bütövlüyə keçiddir*"[60].

Təşəkkül proseslərinin tədqiqində bir-biri ilə əlaqədar qeyri-xəttilik, bütövlük, mürəkkəblik, koherentlik, attraktor və bifurkasiya kateqoriyaları əhəmiyyətli rol oynayır.

İ. Dobronravovanın fikrincə buna daha çox fəlsəfi əsaslar səbəb olur, "*axı təşəkkül, inkişaf, bütövlük, çoxvariantlıq, seçim azadlığı insan həyatını anlamağa daha uyğundur*"[61].

Koherentlik obyektin sistem xüsusiyyətlərinin təzahürüdür, hissəcik və tam antinomiyasının uyğun məqamlarını üzə çıxarır. Bifurkasiya sinergetikanın əsas kateqoriyalarından biri kimi sistemin inkişaf dinamikasının mexanizmini müəyyən edir.

V.S. Styopinə görə rasionallıq növlərini ayırmaq üçün təklif olunan kriteriyalardan biri dominant dəyərlərlə və fəaliyyət subyektinin dəyər-hədəf strukturlarının xüsusiyyətləri ilə bağlıdır[62].

Rasionallıq anlayışının aksioloji funksiyası cəmiyyət üçün dominant olan dəyərlərdə ifadə olunur. Qeyri-xətti, alternativ inkişaf tendensiyaları ilə xarakterizə olunan yaşadığımız dünyada mənəviyyat faktorunun tədricən ön plana çıxması elmi rasionallığın aksioloji aspektinin aktuallığının əsas göstəricisidir.

Postqeyri-klassik elmdə insan amilinin əhəmiyyətli rolu onun humanitar elm sahələrində geniş tətbiqinin əsas səbəblərindən biridir.

---

[59] Князева, Е. Н.Основания синергетики. Режимы с обострением, самоорганизация, темпомиры./ Е.Н.Князева, С.П. Курдюмов – СПб.: Алетейя. – 2002. – с.99-100.

[60] Баранцев Р.Г. Избранное/ Р.Г. Баранцев. – Москва-Ижевск: Институт компьютерных исследований, НИЦ «Регулярная и хаотическая динамика», – 2010. – с. 182.

[61] Добронравова, И. Практическая философия науки/ И. С. Добронравова. – Суми: Университетская книга. –2017. – с.95.

[62] Стёпин, В.С. Классика, неклассика, постнеклассика: критерии различения//Постнеклассика:Философия, наука, культура. –Санкт-Петербург:Издательский дом «Міръ». –2009. – с.249 – 295.

İkinci fəslin nəticəsi kimi aşağıdakıları qeyd etmək olar:

1.Fizioloqların elmi nailiyyətləri poetik yaradıcılığın fizioloji əsaslarını müəyyən etməyə, baş beynin strukturu ilə xalq şeiri formaları arasındakı funksional-struktur uyğunluğunu əsaslandırmağa, canlı orqanizmin təkamülü ilə xalq poeziyasının təkamülü arasında paralellər aparmağa metodoloji əsaslar verir.

2.Sinergetikanın əsas kateqoriyaları xalq poeziyasını sinergetik, yəni qeyri-xətti özünütəkil və inkişaf etdirən bir obyekt kimi tədqiq etmək, xalq poeziyasının şeir formalarında bifurkasiya, attraktor nöqtələrini tapmaq, konvergensiya divergensiya və koherentlik fenomenlərini araşdırmaq, sinergetik sintez prosesinin mexanizmini üzə çıxarmaq məsələlərində açar funksiyasını daşıyır.

Sinergetik paradiqmanın prinsipləri ilə xalq poeziyasının tədqiqi milli mədəniyyətin inkişaf dinamikasının öyrənilməsi baxımından da əhəmiyyətlidir.

Dissertasiya işinin "**Azərbaycan xalq poeziyasının ontologiyası"** adlı üçüncü fəsli Azərbaycan(türk) xalq poeziyasında ontoloji problemlərin tədqiqinə həsr edilmişdir. Ontoloji problemlərin tədqiqi Azərbaycan xalq poeziyasının genezisi və sistem-struktur məsələlərindən başlanır.

Xalq poeziyasının ilk idrak forması və metodu kimi tədqiqi üçün onun təkamül tarixinə nəzər salmaq daha məqsədəuyğundur. Təkamül proseslərinin tədqiqində təkrarlığa əsaslanan müxtəlif metodlardan elmi-metodoloji funksiyasını nəzərə alaraq dissertasiya işində rekursiya prinsipindən istifadə edilmişdir. İ. Kant özünün "Təmiz ağılın tənqidi" əsərində göstərir ki, transsendental kateqoriyal sintez rekursiv mahiyyət daşıyır. O, transsendental idrak dedikdə predmetlərlə deyil, daha çox predmetlərin dərkinə yönəlmiş idrak növləririni nəzərdə tutur.

Rekursivlik anlayışının sistemlərin tədqiqində rolu böyükdür, "*rekursivlik anlayışı insan səviyyəsində mürəkkəbliyi anlamaq üçün vacibdir"*[63].

Rekursiya prinsipi əsası U. Maturana tərəfindən qoyulmuş autopoyezisdə – idrak məsələlərinə bioloji yanaşmada da konseptual

---

[63] Morin, E. Complex thinking for a complex world –about reductionism, disjunction and systems /Vienna : Systema: Connecting matter, life, culture and technology. – 2014. –T. 2, № 1. –p. 17.

əhəmiyyət kəsb edir.

Autopoyezis canlı sistemlərin təşkilatının zəruri və kafi şərtləridir[64].

Xalq şeiri formalarının təkamül mexanizmini izlədikdə məlum olur ki, bu təkamül prosesinin əsasını rekursiya prinsipi təşkil edir: xalq şeiri formalarında mərkəz və onun ətrafı mikrostrukturu iyerarxiyanın müxtəlif səviyyələrində təkrarlanır. Bu mexanizmi qoşayarpaq müxəmməsin bir bəndinin topoloji strukturunda görmək mümkündür.

*Yeni cahan, gözəl zaman keçim sözün sağına mən,*
*Baxsın gözüm, şeir yazım bu gözəl otağına mən,*
*Xoş həyatlı, xoş büsatlı, bu qurğu qurmağına mən,*
*Gəl, saz çalım, bir şux salım qızıl güllü bağına mən,*
*Cüt oturaq, məclis quraq, əhli damaq, ağrın alım!*[65]

Qoşayarpaq müxəmməsin misrasının strukturu üç səviyyəli attraktor sistemindən ibarətdir: birinci səviyyədə daxili qafiyələr, ikinci səviyyədə misra qafiyələri (rədifdən əvvəl gəlir), üçüncü səviyyədə misranın rədifi yerləşir (Şəkil 3.1.1).



**Şəkil 3.1.1. Qoşayarpaq müxəmməsin misrasının topoloji strukturu**

Bu struktura bəndin sonunda müxəmməsin rədifi əlavə olunur. Beləliklə, bəndin topoloji strukturu dörd səviyyəli attraktor sistemindən ibarət olur, qafiyələr köməkçi, rədif əsas attraktordur (şəkil 3.1.2.).

İdrak metodu baxımından kreativ rekursiya yaradıcılıq prosesinin özünə yaradıcı münasibət formasında tədqiqat metodudur, yaradıcılıqda yeni konseptual ideyaların axtarışı və tətbiqidir.

[64] Maturana, H.R., Varela, F.J. Autopoiesis and cognition: The realization of the living / – Luxemburg: –(Vol. 42). Springer Science & Business Media, – 2012. – p. XVIII.

[65] Bozalqanlı aşıq Hüseyn. Seçilmiş əsərləri: [2 cilddə]/ B. aşıq Hüseyn. –Bakı: Vətən, – c. 1. –2015. –s.214.



**Şəkil 3.l.2. Qoşayarpaq müxəmməs bəndinin topoloji strukturu**

Azərbaycan(türk) xalq şeirinin topoloji strukturu onun semantik mərkəzləri rədif, qafiyə (təcnisdə cinas) sistemi və onun ətrafından ibarətdir. Rədif türk xalq poeziyası formalarının əsas cazibə mərkəzi, misraların konvergensiya nöqtəsidir.

Tədqiqatda Azərbaycan(türk) xalq şeirinin topoloji strukturu təklif edilmiş və onun konseptual əsasları işlənmişdir. Kainat, baş beyin və Azərbaycan(türk) xalq şeirinin topoloji strukturları arasındakı izomorfluq əsaslandırılmışdır (şəkil 3.1.3).




**Baş beyin və kainatın strukturu**



**Üç bəndli təcnisin strukturu**

**Şəkil 3.1.3. Kainat, baş beyin və üç bəndli təcnisin strukturları**

Müəyyən edilmişdir ki, Azərbaycan(türk) xalq şeiri formaları rekursiya və konvergensiya prinsipi ilə yaradılır.

Xalq poeziyasının təkamül tarixi göstərir ki, xalq şeiri formaları rekursiv münasibətlərə uyğun yaranır və rekursiv alqoritmi ilə fraktal struktur formalaşır.

Xalq poeziyasında struktur fraktallıqla yanaşı konseptual fraktallar da mövcuddur.

Xalq poeziyasında kainatın, cəmiyyətin və insan münasibətlərinin konseptual fraktal vasitəsi ilə fəlsəfi dərkinə həsr edilmiş şeirlərdə varlığın ilkin əzəli fundamental fenomeni olan rəng konsepti daha çox istifadə edilir.

Azərbaycan xalq şeirinin formalaşma mexanizmi mərkəz və ətrafı prinsipinə əsaslanır: birinci bənd rədif və onun ətrafı , qafiyələrlə tamamlanmış misralardan təşkil olunur: mərkəz – birinci bənd və onun ətrafında birinci bəndin şərhinə həsr olunmuş digər bəndlər yerləşir[66].

Xalq poeziyasının şeir formalarını struktur-funksional nöqteyi-nəzərindən, fikrimizcə, belə mənalandırmaq olar: şeirin birinci bəndi konseptualdır, şeirdə qoyulan məsələlərin tezislərindən ibarətdir, şeirdəki leytmotivi ifadə edir və nüvə kimi şeirin strukturunu lokal miqyasda əks etdirir. Öz strukturuna görə daha çevik və dinamikdir. Bəndlərin «sıxlaşdırılma» dərəcəsi və misraların düzülüş ardıcıllığı birinci bəndin formalaşma alqoritmində çoxvariantlılıq yaradır.

Paralelizmin Azərbaycan(türk) xalq poeziyasındakı rolu

---

[66] **Fəsildə əldə olunmuş elmi nəticələr haqqında bax:** Quliyev, F.A., Aşıq Hüseyn Bozalqanlının şeirlərində konseptual fraktallar// − Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə İnstitutu, Elmi əsərlər,−2018. №2(31),−s.119-125; Кулиев, Ф. А., Конвергенция и параллелизм как факторы формирования целостности// − Москва: VII ялтинские философские чтения**.** "Гуманитарный дискурс в современной философии и культуре". − 2020, с. 28-33. Кулиев, Ф. А., Поэтическая формула как способ выражения философских мыслей // − Москва: VII ялтинские философские чтения**.** "Гуманитарный дискурс в современной философии и культуре". − 2020, с. 22-27; Взаимосвязь тюркской народной поэзии и теории функциональных систем в свете эволюционной эпистемологии// −Москва: Современная наука: Актуальные проблемы теории и практики, ПОЗНАНИЕ, − 2021. №7, с. 77-82; Кулиев, Ф.А., О научно-философских проблемах народной поэзии Азербайджана: синергетический подход // −Bakı: Əmək və sosial münasibətlər, −2023, №2(20), − с.16-27; Quliyev, F.A., Poetik dil və poetik düşüncə münasibətlərinin fəlsəfi aspektləri // − Bakı: Sivilizasiya, 2023. с. 12, № 4. − s.6-13; Кулиев, Ф. А., О познавательной роли метафоры в народной поэзии Азербайджана // –Москва: Современные инновации. X международная заочная научно-практическая конференция «современные инновации в эпоху глобализации: теория, методология, практика. 2020, с.18-21.

T. Kovalski[67], N.S.Trubetskoy, V.M. Jirmunski və M.K. Xamrayevin əsərlərində tədqiq edilmişdir.

**“Paralelizm və konvergensiya prinsipləri Azərbaycan xalq poeziyasının bütövlüyünü formalaşdıran faktorlar kimi”** adlı alt paraqrafda təkamül proseslərinin tədqiqi konkret bir aspektdə davam etdirilir.

Konvergensiya proseslərinin elmi-metodoloji əhəmiyyəti ondadır ki, *“humanitar, təbiət və ictimai elmləri birləşdirməyə imkan verir”*[68].

Bioloji təkamülün bütün əsas kateqoriyaları idrak fəaliyyətinin müvafiq ekvivalentlərinə malikdir və şeirin fəlsəfi mahiyyətini araşdırmaq üçün istifadə edilə bilər.

L.S. Berq konvergensiya və divergensiya anlayışlarını dərin fəlsəfi məna kəsb edən oxşar və fərqliliklə əlaqələndirir. L.S. Berqin fikrincə, təkamül həm ilkin, həm də divergent fərqliliyi göstərir[69].

Paralelizm insan obrazını və onun əsas xüsusiyyətlərini cansız predmetlərə, heyvanlara, bitkilərə və təbiət hadisələrinə köçürməkdən ibarət antropomorfizm prinsipinə əsaslanır.

Rekursiya və paralelizm prinsipləri, konvergensiya və divergensiya kateqoriyaları canlı orqanizmlərin və Azərbaycan xalq poeziyasının təkamülü və inkişafı prosesləri arasında daha müfəssəl paralellər aparmağa məntiqi əsaslar verir.

Azərbaycan xalq poeziyası qeyri-xətti sistemdir və poeziya əsərinin bütövlüyü paralelizm və konvergensiya ilə yanaşı koherentliklə də birbaşa bağlıdır.

**“Poetik formul müdrik fikirlərin ifadə forması kimi”** adlı alt

---

[67] Линин, Ан. К вопросам формального изучения поэзии турецких народов//– Баку: Изв. Восточного фак-та Азерб. гос. ун-та, т.1 –1926, с.139-201; Трубецкой, Н. С. О туранском элементе в русской культуре. www.hrono.ru/statii/turan_ru.html; Жирмунский, В. М., Ритмико-синтаксический параллелизм как основа древнетюркского народного эпического стиха./ Вопросы языкознания. –1964. №4, –с.3-24;

[68] Баксанский, О. Е., Мировоззрение будущего: конвергенция как фундаментальный принцип/– Москва: "Педагогика и просвещение", –2014, № 3 — с.20.

[69] Берг, Л.С. Труды по теории эволюции/ Л.С.Берг –Ленинград: Наука. –1977. с.183.

paraqrafda poetik formulun Azərbaycan xalq poeziyasında rolu araşdırılır.

Poetik formula Azərbaycan xalq poeziyasının təkamül prosesini tam təsvir edən çoxaspektli bir fenomen kimi baxmaq olar. Onun əsas funksiyası milli dünyagörüşü və mədəni-tarixi inkişafı özündə ehtiva etməsidir.

Ədəbiyyatşünaslıqda "formul" termininə ilk dəfə M. Parri bir anlayış kimi diqqəti yönəltmişdir. Onun fikrincə "formul" termini "*hər hansı bir zəruri konsepsiyanı ifadə etmək"* məqsədi daşıyır[70].

Poetik formul G.İ. Maltsev tərəfindən hərtərəfli tədqiq edilmişdir. O, formulu mətnin inteqral hissəsi, kompozisiya komponenti, mətn poetikasının elementi, poetik ənənənin baza elementi kimi qiymətləndirmişdir[71].

A.S. Kinderknext "formul" kateqoriyasının inteqral təbiətinə, bu yanaşmadan yaranan tətbiq sahəsinin geniş miqyasına diqqəti cəlb edir. "formul" kateqoriyası mədəniyyətin tədqiqində mühüm bir vasitədir [72].

Azərbaycan xalq poeziyasının çoxəsrlik təkamül qanunları onun poetik formulunda əks olunur. Azərbaycan xalq poeziyasının aşağıdakı əsas atributlarını qeyd etmək kifayətdir: iyerarxik struktur, fraktallıq, qeyri-xəttilik.

Poetik formul xalq poeziyasının çoxəsrlik təkamülü və inkişafının nəticəsidir. Bu mənada poetik formul riyazi ədəbiyyatda teoremə uyğundur, qanunauyğunluğu lakonik və aydın şəkildə ifadə edir.

Azərbaycan(türk) xalq şeiri formaları qanunauyğunluqları ən lakonik ifadə edən poetik formullardır, yəni artıq düstur forması almış, mücərrəd universal sxemə çevrilmişdir. Bununla da insan təfəkkürünün mahiyyətini göstərən bitkin quruluşlar, əqli nəticələr, qanunlar, riyazi strukturlar statusu qazanmışdır.

Poetik formul xalq poeziyasının struktur-semantik fraktallığının

---

[70] Типологические исследования по фольклору. Москва: Наука, 1975, с. 80.

[71] Мальцев Г.И., Традиционные формулы русской народной необрядовой лирики (Исследование по эстетике устно-поэтического канона)./Г.И. Мальцев. – Ленинград: Наука, – 1989. – с. 71.

[72] Киндеркнехт, А.С. Формула как инструмент лингвокультурного анализа/ А.С. Киндеркнехт. – Пермь:Изд-во Перм. нац. исслед. политехн. ун-та, –2018. – с.8.

müəyyənedici amilidir, yəni, bütün poetik formalar sisteminin dinamik çoxfunksiyalı bir mikromodelidir.

Üçüncü fəslin **"Azərbaycan xalq poeziyası funksional sistem nəzəriyyəsi kontekstində"** adlanan paraqrafında xalq poeziyası P.K. Anoxinin funksional sistem nəzəriyyəsi və sistemogenez konsepsiyasının əsas müddəaları ilə canlı orqanizmin təkamülü baxımından təhlil edilir.

Canlı orqanizmlərin təkamülü ilə Azərbaycan xalq poeziyasının təkamülü arasında əlaqələri P.K. Anoxinin funksional sistem nəzəriyyəsi aspektində tədqiq etmək daha məqsədəuyğundur, çünki bu nəzəriyyə insan təkamülü və idrak proseslərinin elmi əsaslarını özündə ehtiva edir.

Afferent sintez mexanizmlərinin tədqiqi nəticəsində P.K. Anoxinin işləyib hazırladığı neyronun inteqrativ fəaliyyəti prinsipinə görə qıcıqlanmalar eyni neyrona konvergensiya olunur ki, bu da beynin inteqrativ fəaliyyətinin əsas qanunauyğunluğunu təşkil edir. "*Qıcıqlanmaların eyni neyronlara konvergensiyası mərkəzi mexanizmdir*"[73].

Konvergensiya prinsipi xalq poeziyasının da işçi prinsipdir və bütün qrammatik qaydalarını özünə tabe edərək yuxarıda bəhs edilən misra, bənd və bütöv şeir çərçivəsində fəaliyyət göstərir.

Funksional sistemin fraktallıq, iyerarxiklik, heterogenlik xassələri Azərbaycan xalq poeziyasının şeir formalarında təkrar olunur.

Funksional sistemlər öz dinamikliyi ilə seçilir, struktur birləşmələri müstəsna səfərbərliyə malikdir. Bunun sayəsində sistemlər plastik hala gəlir və lazımi faydalı nəticə əldə etmək üçün qəfildən arxitekturalarını dəyişdirə bilirlər.

Funksional sistemlərə fizioloji və idrak mexanizmləri daxildir: xüsusən faydalı bir nəticəyə gətirib çıxaran qərar vermək üçün əks afferentasiya ilə birlikdə lazım olan sintetik və analitik mexanizmlərin qarşılıqlı keçidi, funksional fraktallıq, dinamik iyerarxiya və yüksək adaptasiya qabiliyyəti.

Söz sənətinin bu baxımdan məlum üstünlüyü var, yaradıcı, gözlənilməz və plastik olan insan düşüncələrinin ifadə forması

---

[73] Анохин, П.К. Узловые вопросы теории функциональной системы/ П.К. Анохин. – Москва: Наука. –1980. – с. 166.

yüksək dərəcədə çevikdir. Beləliklə, qabaqlayıcı inikas poetik düşüncə də daxil olmaqla yaradıcı düşüncə mexanizmlərinə aydınlıq gətirir.

Funksional sistem nəzəriyyəsinin prinsipləri xalq poeziyasının təkamülü, inkişafı və funksional-struktur məsələlərinin (bütövlük, fraktallıq, harmoniya, iyerarxiya) araşdırılmasında təkamül epistemologiyası baxımından geniş formada istifadə edilə bilər.

Funksional sistem nəzəriyyəsi və Azərbaycan xalq poeziyası, insanın təkamül prosesinin bir-birini tamamlayan iki aspektidir (fizioloji və idrak), insan təbiətinin kompleks şəkildə tədqiqinin lazımi elementlərini təşkil edir.

Üçüncü fəslin **"Azərbaycan xalq poeziyasının kamillik və optimallıq problemi"** adlı paraqrafı poeziya sənətini xarakterizə edən kamillik və optimallıq məsələləri araşdırılmasına həsr edilib. Təbiətdə baş verən proseslərin təməlində ən kiçik təsir prinsipi dayanır. Ən kiçik təsir prinsipinin idrak proseslərindəki roluna Rixard Avenarius diqqəti yönəltmişdir. R. Avenarius nəzəri appersepsiyanın əsası olaraq ən kiçik təsir ölçüsü prinsipinin əhəmiyyətini appersepsiya prosesinin icra olunmasındakı qənaətdə görür[74].

Ən kiçik təsir prinsipi təbiətşünaslıqda kəşf edildikdən ancaq iki əsrdən də çox sonra fransız dilçisi A. Martine tərəfindən "qənaət prinsipi" adı ilə dilçilikdə tətbiq olundu. Burada qənaət anlayışı "*kommunikasiya insanın tələb ilə minimum fizioloji enerji sərfinə meylliyi arasındakı kompromis*" bir məsələ kimi qoyulmuşdur[75].

Mütəxəssislər qənaət mənbələrini qrammatika qanunları və insanın fizioloji tələbatı-enerjiyə qənaətlə əlaqələndirirlər. Leksik vasitələrin ixtisar edilməsi "*təkamülün təbii qanununa uyğundur, ... çoxsözlü cümlələr birsözlü cümlələrə çevrilir*"[76].

Sadalanan qənaət vasitələri ümumi dilçiliklə bağlıdır, burada

---

[74] Авенариус, Р. Философия как мышление о мире сообразно принципу наименьшей меры сил. Prolegomena к критике чистого опыта/Р. Авенариус. – Москва:Комкнига. –2007. – с.12.

[75] Мартине, А. Основы общей лингвистики/А. Мартине. –Москва: Новое в лингвистике. –1963. –Вып.3. –с.532-533.

[76] Спенсер, Г. Основные начала/Г. Спенсер. –Киев: Вища школа. –1986. – с. с.171-172.

poeziyanın qənaət prinsipləri ayrıca nəzərdən keçirilməmişdir.

Qeyd etmək lazımdır ki, dildəki qənaət, yəni optimallıq düşüncədəki optimallıqdan irəli gəlir. Düşüncədəki optimallıq isə ilk növbədə məntiqin sadəlik prinsipi ilə bağlıdır, "*məntiqin sadəlik prinsipi elmi nəzəriyyənin keyfiyyət xarakteristikası, onun strukturunun mükəmməllik ölçüsüdür*"[77]. Ona görə də A. N. Kolmoqorov düşüncə və yaradıcılıqda daha sadə mümkün həllərə üstünlük verməni universal prinsip kimi qəbul edir. "*Optimal həllə kiçik düzəlişlərlə ardıcıl yaxınlaşmaq olar*", onun fikrincə insanların "intuisiyaları" optimal həlləri tapmaq iqtidarında deyil[78].

Xalq poeziyasının kvantor və qənaət mənbələrini ilk növbədə iyerarxiya üzrə qruplara ayırmaq daha məqsədəuyğundur:

1. İdrak vasitələri – metafora, mədəniyyət sabiləri, konseptləri (kvantorlar – söz və ya söz birləşmələri formasında);
2. Lüğət fondundan istifadə (cinas qafiyələri, dodaqdəyməzlərdən istifadə);
3. Şeir formalarının strukturu.

Fikirlərin yığcam ifadəsi üçün aforizmlərdən də istifadə edilir. Xalq aforizmləri kollektiv yaradıcılığın məhsuludur, xalqın dünyagörüşünü, əhval–ruhiyyəsini obrazlı şəkildə ifadə edir.

Poetik düşüncə metaforik düşüncədir, poeziyanın söz sənəti və idrak vasitəsi kimi əsas atributlarını metafora müəyyən edir.

Leksik məhdudiyyətlər ilk növbədə təcnislə bağlıdır, təcnisin misra qafiyələri və rədifi cinas sistemindən ibarətdir. İkinci məhdudiyyət dodaqdəyməzdir, söz seçimində o sait və samitlərdən istifadə edilməlidir ki, sözlərin tələffüzündə dodaqlar tərpənmir. Burada şərtlər daha da sərtləşdirilir, ancaq o sözlərdən istifadə etmək olar ki, tərkibində doqquz hərf - b, f, m, p, v, o, ö, u, ü olmasın, yəni əlifbanın ancaq 71,875%- dən istifadə edilir, 28,125%-nə qənaət edilir.

Azərbaycan xalq poeziyası tədricən öz optimal formasına yaxınlaşmaqla Kolmoqorovun qnoseoloji prinsipinin tələblərinə cavab

---

[77] Лившиц, В. М. К вопросу об оптимальности форм мышления. /–Тарту: Ученые записки Тартуского Государственного университета. Труды по философии. т.VIII. –1965. –с. 61.

[78] Письмо академика Колмогорова (А.Н. Колмогоров. 27 августа 1963 г.) (http://www.psychology-online.net/articles/doc-142.html.

verir.

Azərbaycan xalq poeziyasında struktur formalarının yaratdığı məhdudiyyətlər ontoloji baxımdan elmi-metodoloji funksiya daşıyır.

Azərbaycan xalq poeziyasında optimallıq prinsipləri çoxkriteriyalı optimallaşdırmanın verbal formasıdır, bu sinfə daxil olan məsələlərin birqiymətli həlli mövcud deyil, ancaq kompromis həlli almaq mümkündür.

Dissertasiyanın **"Poetik düşüncə və poetik dil əlaqələrinin fəlsəfi aspektləri" adlı** paraqrafında poeziya dil və düşüncənin qovşağı kimi təqdim olunur.

Poetik dil ilə poetik təfəkkür arasındakı əlaqənin təkamülünü dil, təfəkkür və cəmiyyət münasibətləri işığında araşdırmaq daha məntiqəuyğundur.

Düşüncə heterogen strukturludur, müxtəlif təbiətli elementlərin üzvi sintezindən təşkil olunur. "*Dil ... işarə sistemi kimi insan şüurunun prosessuallığının, onun vəziyyətlərinin ifadəsini verir*"[79].

Şüur dil formasında təzahür edir, fikirlərin adekvat ifadəsi üçün müxtəlif formalardan istifadə edir.

İnsanların dünyaya baxışı mifoloji düşüncədən qaynaqlanan poetik düşüncə ilə formalaşıb. Bu mənada poetik düşüncə ilkindir və məntiqi-kateqoriyal düşüncədən fərqlənir və müstəqil düşüncə tərzidir.

Poetik düşüncə məntiqi-kateqoriyal düşüncənin ziddinə olaraq irrasionallığa, intuisiyaya, metaforikliyə üstünlük verir. *"Məzmun baxımından poetik düşüncə sərt rasionalizmin kökündən rədd edilməsini nəzərdə tutur"*[80].

Poetik metaforalar poeziyanın əsas sistemyaradıcı elementlərindən biridir. Poetik metaforanın dünyagörüşü formalaşdırmaq rolu bu sahədə poeziyanın əsas elementi kimi qiymətləndirilə bilər.

Poetik dilin strukturu dinamik, motivasiya edilmiş, yaradıcılığa köklənmiş strukturdur. Struktur baxımından poetik dildə bəzi yeni dil strukturları yaradılır, yəni poetik dil adi dildə alternativi olmayan qeyri-adi konstruksiyalara malikdir.

Poetik dil və poetik düşüncə strukturları daim qarşılıqlı birgə

---

[79] Новейший философский словарь. –Минск.: Книжный Дом. –2003. –с.1250-1255.

[80] Новейший философский словарь. –Минск.: Книжный Дом. – 2003. – с.787-789.

təsirdə olur və nəticədə bu strukturlar arasında daha yüksək uyğunluq yaranır. Dil kateqoriyaları ilə insan beyninin universal struktur xüsusiyyətləri arasında əlaqələr düşüncə ilə gerçəklik arasındakı izomorfluq prinsipi əsasında inkişaf edir.

Müəyyən edilmişdir ki, poetik dil fikri təkcə ifadə etmir, həm də "ifadə edilə bilməyəni ifadə etmək" prinsipi ilə inkişaf etdirir.

Dissertasiyanın dördüncü fəsli **"Azərbaycan xalq poeziyası sistemində qnoseoloji aspektlər"** adlanır. Fəslin birinci paraqrafında "**Azərbaycan xalq poeziyasında poetik refleksiya kateqoriyası"**nın definisiyasına cəhd edilir.

Poetik refleksiya fəlsəfi refleksiyanın xüsusi formasıdır. L.A. Mikeşinanın fikrincə refleksiya – özünün və başqalarının düşüncə və hərəkətlərini əhatə edir, bununla yanaşı mədəniyyət, elm və onların əsaslarının dərkinə yönəlmiş nəzəri fəaliyyət formasıdır[81].

Poetik refleksiya idrak metodlarına poeziyanın nəzəri prinsipləri çərçivəsində yanaşmadır: şairə öz yaradıcılığını təhlil etməyə və onu təkmilləşdirməyə, gerçəkliyin poetik inikası və dərkinə yönəlmiş nəzəri-mənəvi fəaliyyət formasıdır. Beləliklə, poetik refleksiya poeziyanın mahiyyətini, onun nəzəri və praktiki aspektlərini, ümumən, poetik yaradıcılıq prinsiplərini müəyyən edən bir kateqoriyadır[82].

---

[81] Микешина, Л.А. Философия науки: Современная эпистемология. Научное знание в динамике культуры. Методология научного исследования/ Л.А. Микешина. –Москва: Прогресс-Традиция : МПСИ : Флинта. – 2005. –12 с.

[82] **Fəsildə əldə olunmuş elmi nəticələr haqqında bax:** Кулиев, Ф.А., О поэтической рефлексии в народной поэзии Азербайджана // − Vienne: The European Journal of Humanities and Social Sciences, − 2018. №5, c.45-51; Quliyev, F.A., Poetik refleksiya kontekstində klassik poeziya və xalq poeziyası əlaqələri : Məhəmməd Füzuli və aşıq Hüseyn Bozalqanlı // −Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji elmlər seriyası, −2021. c.69, №2, −s. 49-57; Кулиев, Ф. А., Мысли и афоризмы в народной поэзии Азербайджана // − Москва: Современные инновации. X международная заочная научно-практическая конференция «современные инновации в эпоху глобализации: теория, методология, практика, − 2020, c. 14-17; Quliyev, F.A., Türk xalq poeziyasında qeyri-xəttiliyin ontoqnoseoloji məsələləri haqqında// "World Science: problems and innovations", dedicated to the 115th anniversary of Mahammadhuseyn Shahriyar. East Lansing, Michigan, USA, − 2021. −p. 221-225; Quliyev, F.A., Türk xalq poeziyasında sinergetik sintez gerçəkliyin bütöv dərki üsulu kimi// − Bakı: Elm və İnnovativ Texnologiyalar, − 2021. №19, − s.33-49; Guliyev, F.A. Metaphor as an object of the synergy paradigm study// − New York: Linguistics and Culture Review, − 2021. 5(S1) s.1-10; Quliyev, F.A., Konseptlər

Poetik refleksiyanın köməyi ilə subyekt insan varlığının mənasını dərk edir, öz həyatının dəyər ideallarını müəyyənləşdirir, ictimai münasibətlərdə və idrak fəaliyyəti prosesində müstəqil mövqe formalaşdırır və inkişaf etdirir.

Poetik refleksiyanın özünəməxsusluğu ondadır ki, yaradıcılıq məsələlərinə münasibətdə yaradıcı rekursiya ilə üst-üstə düşür, öz poetik yaradıcılığına tənqidi münasibət, ənənəyə novator baxışı, insanın düşüncə və yaşantılarını inandırıcı təsvir etmək üçün yeni və daha mükəmməl metodların axtarışı kimi başa düşülür.

Poetik refleksiya xalq poeziyasında milli dünyagörüşünün xüsusiyyətləri və onun daha adekvat poetik ifadəsi üçün yeni şeir formalarının yaradılması formasında da özünü təcəssüm etdirir. Belə ki, poetik refleksiya nüvəsini şifahi xalq poeziyasının təşkil etdiyi milli mədəniyyətin inkişafını tədqiq etməyə imkan verir.

Dissertasiya işində klassik poeziyadan Məhəmməd Füzuli və xalq poeziyasından isə aşıq Hüseyn Bozalqanlı yaradıcılığına diqqət ayrılmışdır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, poetik refleksiya gerçəkliyin idrak metodu və milli dünyagörüşlərinin ifadə forması qismində xalq və klassik poeziyaları arasındakı əlaqələri tədqiq etmək üçün nəzəri-fəlsəfi kriteriya funksiyasını yerinə yetirir.

M. Füzuli poeziyanın mahiyyəti və cəmiyyətdəki rolunu öz dövrü üçün mövcud elmi-fəlsəfi konsepsiyaları nöqteyi-nəzərindən qiymətləndirir.

Aşıq Hüseyn Bozalqanlı “aşıqlıq elmi” dedikdə poeziya haqqında ozan- aşıq sənəti ənənələrinə, Qurbanidən bəri ustadların yaradıcılığına, xalq poeziyasının mövzusuna, şeir formalarına yaradıcı münasibəti, Quran ayələrindən istifadə səriştəsini nəzərdə tutur.

Fəslin **“Azərbaycan xalq poeziyasında qeyri-xətti düşüncənin fəlsəfi mahiyyəti”** adlı paraqrafı söz sənətində qeyri-xəttilik fenomeninin araşdırılmasına həsr edilib.

Söz sənəti və gerçəkliyin idrak metodu kimi poeziya qədim bir təkamül tarixinə və mürəkkəb qeyri-xətti, çox səviyyəli dinamik struktura malikdir, yəni, qeyri-xəttilik poeziya və poetik düşüncənin

---

milli fəlsəfi düşüncənin ifadə forması kimi // –Bakı: Sivilizasiya, – 2021. c. 10, № 4, –s.15-21.

əzəli atributlarındandır.

Qeyri-xəttilik mürəkkəb fenomen olaraq, bizi əhatə edən maddi dünyada və insanın mənəvi aləmində mövcuddur. Bu səbəbdən qeyri-xəttiliyi araşdırarkən müxtəlif amillərin nəzərə alınması zərurəti yaranır: 1. Maddi və mənəvi aləmdə qeyri-xəttiliyin özünəməxsusluğu. 2. Qeyri-xəttiliyin əsas xüsusiyyətlərinin maddi dünyadan mental dünyaya transformasiya üsulları. 3. qeyri-xətti düşüncənin şifahi, xüsusən də poetik ifadələrə transformasiya xüsusiyyətləri.

Poetik düşüncə sistemli-sinkretik və çoxkomponentli fenomen olaraq "*bütün qeyri-müəyyənliyi, özünəməxsusluğu ilə varlığın analogiya probleminə - bütövlükdə metafora probleminə*" əsaslanır"[83].

Poeziyada qeyri-xəttiliyin qaynaqlarından biri sinesteziyadır. Sinesteziya obrazlı təfəkkürün formalaşmasında əhəmiyyətli rol oynamaqla yanaşı, sinergetik təfəkkürün də təməl elementlərindən biridir. Sinesteziya fenomeni qeyri-xətti sintezin formalaşması prosesinin qədimliyi haqqında real təsəvvür yaradır.

Sinesteziya idrak prosesində beynin bütün struktur vahidləri arasındakı əlaqələri əhatə edir, bu baxımdan fenomenin elmi-fəlsəfi şərhi holoqrafiya prinsipi, assosiativlik, fraktallıq, qeyri-xəttilik, bütövlük kimi kateqoriyaların tətbiqini nəzərdə tutur.

Xalq poeziyası mürəkkəb sinergetik sistemdir. Bəzən iki misra faza portreti qurmaq üçün yetərli olur.

Aşağıdakı beytin məzmunu islam mənəvi prinsiplərindən qaynaqlanır.

*Günahkar kimsələr nara hey yanar,*
*Nə kövsəri görər, nə saqi bilər*[84].

Beytin mənası ondan ibarətdir ki, insan həyatda günahsız yaşamaq və yaxşı işlər görmək prinsipi ilə yaşamalıdır. O, xoşbəxtliyini həm real həyatda, həm də o dünyada qura bilər. Böyük günah sahibləri - həm bu dünyada, həm də o biri dünyada ciddi şəkildə cəzalandırılacaqlar. Beytin qeyri-xətti məntiqi sinergetik təbiətə malikdir, bunun əsasında qurulan faza portreti aşağıda verilmişdir (şəkil 4.2.1).

---

[83] Новейший философский словарь. –Минск.: Книжный Дом. –2003. – с.787.

[84] Bozalqanlı aşıq Hüseyn. Seçilmiş əsərləri: [2 cilddə]/ B. aşıq Hüseyn. –Bakı: Vətən, – c. 1. –2015. – s.54.




**Qrafik 4.2.1. Cəza ölçüsünün günah dərəcəsindən asılılığı.**

F oxu cəza ölçüsünü, M oxu isə nizamlılıq parametrini-törədilən günahın dərəcəsini, insanın əməllərindəki günahın sərhəddini ifadə edir. Şəkildə $M_k$ bifurkasiya nöqtəsidir.

Kim günahın müəyyən edilmiş sərhəddini keçərsə, onda çox ağır bir cəzaya məruz qalacaq, yəni, istər yaşadığımız real dünyada, istərsə də axirətdə onu məşəqqətli həyat gözləyir. Bu vəziyyət adətən "çəngəl" formasında göstərilir.

Heterogenliyin**,** yəni, refleksdəki maddi və ideal arasındakı vəhdətin, poetik düşüncədə və semiotik sistem olaraq poeziyada qeyri-xəttilik prinsipinin müxtəlif təzahür formaları mövcuddur.

**"Azərbaycan xalq poeziyasında sinergetik sintezin yeri və rolu"** adlanan paraqrafda qeyri-xəttilik sinergetik sintez formasında araşdırılır.

Xalq poeziyasında inkişaf fenomeni sintez məntiqi əməliyyatı ilə sıx bağlıdır, başqa sözlə, ənənənin inkişafında sintezdən yaradıcılıq prinsipi kimi geniş istifadə olunur.

Sintez əməliyyatının konstruktivliyi onun çoxvariantlığını müəyyən edir. Yəni ixtiyari bir strukturun formalaşdırılması prosesində müxtəlif funksiyalı və ölçülü elementlər vahid məqsədə xidmət etmək məqsədi ilə optimallıq prinsipinə uyğun şəkildə birləşdirilir.

Sintez terminini sintetik mühakimələr sistemi kimi də qəbul edirlər. Bu baxışa görə obyekt və proses haqqında empirik məlumatlar ümumiləşdirilərək vahid bütövə çevrilir. "*Sintez zehni*

*əməliyyatı obyektlərin hissələrinin bir bütövə obyektiv birləşdirilməsindən yaranır”*[85].

Sintez prosesində keyfiyyətcə yeninin yaradılmasının ənənə-varislik-novatorluq üçlüyü ilə tədqiqi sinergetik sintez prosesinin əsas məqamlarına aydınlıq gətirə bilər.

Azərbaycan xalq poeziyasına nəzər saldıqda ənənə, varislik və novatorluq üçlüyündə münasibətlərin qeyri-xətti xarakter daşıdığının şahidi oluruq, eyni zamanda yeniliyin yaranmasında novatorluqla ənənənin sintezi zəruri məntiqi əməliyyatlardan biri kimi diqqəti cəlb edir.

Qeyri-xətti sintezə nümunə cığalı təcnisdir, cığalı təcnisin bir bəndini nəzərdən keçirək.

Cığalı təcnis bayatı təcnis və təcnis kimi iki müstəqil şeir formasının sintezindən yaranır**.** Bayatı təcnis cığalı təcnisin nüvəsini, təcnisin misraları isə sanki bayatı təcnisin orbitlərini təşkil edir. Bununla da cığalı təcnisin strukturunda iyerarxiklik, simmetriya və heterogenlik xassələri yaranır, strukturdakı mürəkkəblik və ikiqat qeyri-xəttilik şairə seçdiyi mövzu ətrafında fikirlərini ümumiləşdirməyə geniş imkan yaradır.

*Sərrafın dəstində nə danə gördüm,*
*Mürğün dəhanında nə danə gördüm.*
*Aşıq nə danə gördüm,*
*Xalın nə danə gördüm,*
*Tülək tərlan tuş oldu,*
*Axır nadanə gördüm.*
*Gövhəri verdilər nadanə gördüm,*
*Bilmədi qiymətin, ay hayıf-hayıf!*[86] [10, c.1, s.178].

Cığalı təcnisdə ədalətsizliyə milli təfəkkür nöqteyi-nəzərindən münasibət öz əksini tapmışdır. Sərrafın dəsti ilə mürğün dəhanı metaforik şəkildə müqayisə edilir. Sərraf ən dəyərli daş-qaşın bilicisi,

---

[85] Новая философская энциклопедия:[в 4-х т.]/ рук. Проекта В.С. Стёпин, Г.Ю. Семигин. –Москва: Мысль. –2010. Т. 3. –692 с.

[86] Azərbaycan aşıq şeirindən seçmələr:[2 cilddə]/ Bakı: “Şərq-Qərb”, – I cild. – 2005. – s.178.

alıcı quş isə şikarının ovçusudur. Ədalətsizlik onda baş verir ki, qiymətli daş-qaş nadana qismət olur, tülək tərlan isə sara tuş gəlir.

Xalq təfəkküründə qeyri-xətti sintezin konseptual səviyyədə nümunələrinə aşıqların dastan yaradıcılığında da rast gəlmək mümkündür. Xalqın azadlıq mübarizəsindən bəhs edən "Nəriman"[87] (aşıq Hüseyn Bozalqanlı) dastanının təhlili göstərir ki, azadlıq anlayışı xalq təfəkküründə tədricən formalaşmışdır.

Azərbaycan(türk) xalq poeziyasında sinergetik sintezin ilk nümunələri bayatılarda yaradılmışdır. Bayatı və bayatı təcnisin sintezi, yəni cinas və qoşma qafiyələrindən qarışıq şəkildə istifadə praktikası öz başlanğıcını bayatılardan götürür.

Onu da qeyd etmək yerinə düşərdi ki, XV-XVI əsrlərdə nə sintez, nə də sinergetika anlayışları mövcud deyildi, ancaq bizim ozan aşıqlarımız sinergetik sintezin poetik nümunələrini artıq yaratmışdılar.

Dördüncü fəslin **"Metaforik ifadələrin yaranmasında sinergizm prinsipinin rolu"** adlanan paraqrafında metaforanın sinergetik xassələri nəzərdən keçirilir.

Metaforanın fəlsəfəyə münasibəti polifunksionaldır: fəlsəfi ideyaların mövcudiyyət və adekvat ifadə formasıdır, metodoloji aspektdə ontologiya, qnoseologiya və aksiologiyanın üzvi vəhdəti üçün inteqrativ rol oynayır.

"*Metaforaya fəlsəfi yanaşmalar adətən metafora nəzəriyyələri adlanır"*[88], deməli metafora ilə elmi nəzəriyyələr arasında yaxın əlaqə mövcuddur.

Metaforanın ontoloji funksiyası hər şeydən əvvəl reallığın yenidən canlandırılması prosesində özünü təcəssüm etdirir, yəni onun nominativ və təsvir etmə xassələri ilə təyin edilir.

Metaforanın qnoseoloji funksiyaları məlum predmet və proseslər əsasında qiymətləndirmə, predikativlik, müxtəlif siniflərə mənsub obyektlər arasında oxşarlıq yaratmaq və onları bütöv sistemdə birləşdirmək üsuludur.

Metafora bizi əhatə edən dünyanın dərkində predmetlərin

---

[87] Bozalqanlı aşıq Hüseyn. Seçilmiş əsərləri: [2 cilddə]/ B. aşıq Hüseyn. –Bakı: Vətən, — c. 2. –2015. – s.56-93.

[88] Jakub Mácha, Metaphor in Analytic Philosophy and Cognitive Science, // –Braga: Revista Portuguesa de Filosofia, 2019, Vol. 75 (4): – p. 2247.

xassələri və onların arasındakı münasibətlərin, maddi və qeyri-maddi-mənəvi dünyada baş verən proseslərin mexanizminin idrak metodu kimi istifadə edilir. Bu baxımdan "*bədii mətnlərdə metaforanın dünyanı modelləşdirmə funksiyasını yerinə yetirməyə qadir*" olduğunu söyləmək olar[89].

Metafora insan düşüncəsinin yaranışdan qeyri-xətti sistemli xarakterini müəyyən etmişdir. Bu nöqteyi-nəzərdən metaforanın dinamik sistem kimi sinergetik paradiqma prinsipləri ilə tədqiqi onun yeni xüsusiyyətlərini aşkar etməyə imkan verir.

Metaforanın sinergiya ideyası onun inteqrativ, sistemyaradıcı, bir-birindən uzaq predmetlər arasında əlaqələr yaratmaq xassələrini müəyyən edir.

Metaforik düşüncə geniş funksiyalar spektrinə malikdir: bir-birinə zidd elementlərdən sistemin yaradılması, bir konseptual sistemin digərinə transformasiyası, reallığın yenidən qurma vasitəsi kimi ilkin nişan və ya predmet informasiyasının mental obrazlara çevrilməsi, həmçinin əlçatmaz olanları əlçatanlar vasitəsilə ifadə etmək.

Metaforanın sinergiya ideyası onun inteqrativ, sistemyaradıcı, bir-birindən uzaq predmetlər arasında əlaqələri yaratmaq xassələrini müəyyən edir. Sistem xüsusiyyətləri dominantdır, onun qalan xüsusiyyətləri sistemlilik prinsipindən çıxan nəticələrdir. Bu baxımdan sistem yanaşmasının tətbiqi ilə metaforanın əsas və onların törəmə funksiyalarını müəyyən etmək və sinergetik paradiqma ilə metaforanın arasında uyğun paralellər aparmaq olar.

İdrak nəzəriyyəsində sinergetikanın rolu məlumdur, belə ki, gerçəkliyin dərkinə yeni qnoseoloji və dəyər yönlü yanaşmaları sistemləşdirir, yeni obyekt – subyekt münasibətlərini nəzərə alır.

Metafora sinergetik sistem kimi idrak prosesinin qeyri-xəttilik və çoxmərhələliyi ilə müəyyən edilən qeyri-xətti iyerarxik struktura malikdir.

Dördüncü fəslin **"Milli konseptlər fəlsəfi-poetik düşüncənin ifadə vasitəsi kimi"** adlı paraqrafında milli konseptlərin idrak məsələlərində funksiyaları nəzərdən keçirilir.

---

89 Вилкова, А. В. Миромоделирующая функция метафоры (на материале творчества В. Полозковой) //– Москва: Вестник Московского государственного областного университета. Серия: Русская филология. –2023. –№ 3. –с. 39.

Xalq poeziyasında milli dünyagörüşlərinin ifadəsi üçün məhdud sayda anlayış və kateqoriyalar mövcuddur. Bu təməl kateqoriyalarından biri də milli konseptlərdir.

Konsept bütöv dünya mənzərəsini əks etdirə bilər, "qlobal düşüncə vahidi" olması isə konseptin fənlərarası metodoloji əhəmiyyətinin göstəricisidir. Konseptin ontoloji xassələrinə əlavə olaraq qeyd edək ki, "*konsept insanın mental dünyasındakı əsas mədəniyyət hüceyrəsidir*"[90]. Bu fikrin davamı olaraq konseptə milli təfəkkür kodunun vahidi kimi baxırlar, yəni konseptdə obrazın hissi komponenti kodlaşdırılır, məhz obraz fərdi bir duyğusal görünüş ilə şüurda kodlanır.

Konseptin özünüinkişaf xassəsi sözün canlılığı və polisemantikasından yaranır. Hər bır konsept dil daşıyıcısının baxılan kontekstdən və onun dil sahəsindəki səriştəsindən asılı olaraq fərqlı şəkildə şərh edilə bilər.

Milli düşüncə tərzinin unikallığı konseptlərlə ifadə olunur, konseptlər xalqın ətraf gerçəkliyi dərketmə sahəsindəki ənənələrini, insanın cəmiyyətdəki rolu haqqında düşüncələr kompleksini ehtiva edir.

Xalq poeziyasında milli dünyagörüşlərinin ifadə formasını "ədəb-ərkan" konseptinin timsalında nəzərdən keçirmək olar.

Müxtəlif lüğətlərdəki etimologiyasına görə "ədəb-ərkan" konsepti geniş mənalar spektrini əhatə edir. Bu mənaların hər birinin açıqlanması milli mədəniyyətin idrak, etika və estetika triadasından baxışda konseptin əhəmiyyətini şərh etmək üçün daha əlverişlidir.

Konseptin müxtəlif elm sahələrində verilmiş definisiyaları içərisində onun "ideya daşıyıcısı" kimi qiymətləndirilməsi milli mədəniyyətin, məxsusi olaraq milli fəlsəfənin təşəkkülünün tədqiqi baxımından daha əhəmiyyətlidir.

Konsept mental kateqoriyadır, etnosun düşüncə tərzindəki unikallığın ifadəçisidir. "Ədəb-ərkan" konsepti xalqın düşüncə və həyat tərzinin bütün sahələrində mövcuddur. Bu səbəbdən konseptin məna çalarları insan həyatı və fəaliyyətinin bütün sahələrini əhatə edir. Bununla da konsept özündə xalqın tarixi-mədəni inkişaf təkamülünü

---

[90] Степанов, Ю.С. Константы. Словарь русской культуры. Опыт исследования/ Ю.С. Степанов. – Москва: Школа. Языки русской культуры. –1997. – 825 с.

əks etdirir.

"Ədəb-ərkan" konsepti xalq poeziyasında ən çox istifadə edilən konseptlərdəndir. Ustad aşıqların ustadnamələrində "ədəb-ərkan" konseptinin zəngin məna çalarları metaforalarda, frazeologizmlərdə və aforizmlərdə özünün yüksək bədii poetik əksini tapmışdır.

**Dissertasiyanın V fəsli "Xalq poeziyasi və İslam düşüncə tərzi" adlanır.** Bu fəsildə harmoniya kateqoriyasının elmi-fəlsəfi və dini dünyagörüşü nöqteyi-nəzərindən komparativist təhlili verilir.

**"Azərbaycan xalq poeziyasında insan və gerçəklik münasibətləri(İslam dini dünyagörüşü kontekstində)"** adlı paraqrafda insan və gerçəklik münasibətləri haqqında aşıqlarımızın şeirlərində ifadə olunan düşüncələrin fəlsəfi mahiyyəti şərh edilir.

Dini dünyagörüşləri şifahi xalq poeziyasının mifdən ayrıldığı zamandan etibarən milli düşüncənin formalaşmasına ciddi təsir göstərmişdir.

Dini dünyagörüşünün canlandırılması mənəvi aşınma dövründə xüsusilə vacibdir. Bu baxımdan insan və cəmiyyətin mənəvi təkamülündə İslam amili indiki dövrdə xüsusi ilə aktualdır.

Elmi fikirlər dini ideyaların ənənəvi təsir dairəsinə cəlb edildikdə dini ideyaları daha da dərinləşdirir və aydınlaşdırır[91].

Bununla yanaşı bəzi məsələlərdə elm və din arasında sərhədlər nisbi xarakter alır, nəticədə "*müasir epistemoloqların fikrincə analitik fəlsəfədə elm və din arasında "sərhədlərin silinməsinə"* gətirib çıxardı[92].

Elm və fəlsəfə arasında ümumi mövzu insan problemidir. İnsan haqqında elmi və dini biliklərin ortaq nöqtələri insan təbiətinə daha dərindən nüfuz etmək üçün zəmin yaradır.

Ustad aşıqlarımızın əsas bilgiləri islami baxışlar zəminində formalaşıb. Bu səbəbdən xalq poeziyasında insan və gerçəklik münasibətlərinin dini-fəlsəfi aspekti üstünlük təşkil edir. Dialektikanın qanunları isə dini dünyagörüşlərindəki elmi əhəmiyyəti aşkar etmək

---

[91] Клементьева, Т. Н., Взаимоотношения религии и науки в современном мире: философский анализ модели интеграции // Вестник Вятского государственного университета. –2020, № 1 (135) – с.30.

[92] Баранец, Н. Г., Верёвкин, А. Б. Ученые и философы о совместимости науки и религии/ – Санкт-Петербург: Христианское чтение. № 6, – 2018. –с.148.

üçün əsas kriteriya kimi istifadə edilə bilər.

Müqəddəs kitabımız Qurani Kərimdə kainatın yaranması haqqında oxuyuruq: *"O, göyləri və yeri(yoxdan) var edəndir"* (6, 101)[93].

*Xəstə Qasım qalıb naçar,*
*Bəs bu sirri kimlər açar?*
*Gələn qonar, qonan köçər,*
*Hey salarsan talan dünya*[94].

Yaşadığımız dünya sirri-müəmmalarla doludur. Mənalı ömür sürmək dünyanın sirlərinə vaqif olmaq insanın borcudur. Bəs bu sirri kimlər açar? Bu ritorik sual əslində bəşər övladı qarşısında qoyulur. Yuxarıda qeyd edildiyi kimi, bu sirləri açmaq üçün ilk cəhdləri ozan aşıqlar etməlidir və onlar insanları bu sirləri aşkar etmək üçün çalışmağı tövsiyə edir.

İnsan və gerçəklik münasibətlərinin dini baxışlarla tədqiqi milli düşüncənin özünəməxsus cəhətlərini aşkar etməkdə xüsusi əhəmiyyətə malikdir[95].

Kainatın kiçik bir "dürdən" yaranması haqqında aşıqların söylədiyi fikirlər bir tərəfdən Quran ayələrinə uyğundur, digər tərəfdən müasir "kosmik partlayış" nəzəriyyəsi ilə səsləşir.

Şifahi xalq poeziyasının klassikləri Quran ayələrindən isitifadə edərək insanın yaranması haqqında da müdrik fikirlər söyləmişlər.

Beşinci fəslin **"Azərbaycan xalq poeziyasında harmoniya fenomeni"** adlı paraqrafında harmoniya kateqoriyasının elmi-fəlsəfi və

---

[93] Qurani Kərim. (tərcümə edənlər Z.M. Bünyadov, V.M. Məmmədəliyev). –Bakı: "Çıraq". –2015. –s.97.

[94] Azərbaycan aşıq şeirindən seçmələr:[2 clddə]/ Bakı: "Şərq-Qərb", – I cild. – 2005. – s.153.

[95] **Fəsildə əldə olunmuş elmi nəticələr haqqında bax:** Quliyev, F.A., Xalq poeziyasında insan və gerçəklik münasibətləri// – Bakı: Dövlət və din, – 2021. №03(70), – s.60-66; Quliyev, F.A., Xalq poeziyasında harmoniya kateqoriyasına münasibət(İslami baxış)//– Bakı: Din araşdırmaları, – 2021. № 2(7), –s.385-398; Quliyev, F.A., Xalq poeziyasında islam əxlaqı və harmonik şəxsiyyət məsələləri//– Bakı: Dövlət və din, – 2018. №3, –s.34-39; Онтогносеологические предпосылки гармонии в тюркской народной поэзии// Košice, Path of Science: International Electronic Scientific Journal, 2024, т.10, № 1, c.9008-9015.

İslam dini nöqteyi-nəzərindən müqayisəli təhlili verilir. Təhlil göstərir ki, harmoniyanın mahiyyətinə nüfuz etmək üçün elmi-fəlsəfi və dini baxışların birgə tətbiqi əhəmiyyətli nəticə verə bilər. Belə ki, əgər elm təcrübənin nəticələrini ümumiləşdirməklə hadisə və obyektlərin əsasən görünən tərəflərini tədqiq edirsə, məlum olduğu kimi, din diqqəti gerçəklikdə baş verənlərin görünməyən tərəfinə yönəldir.

Harmoniya mürəkkəb, çoxaspektli hadisə kimi reallığın dəyişmə və təkamül qanunauyğunluqlarını əks etdirir.

Yeni fəlsəfi lüğətdə harmoniyanın mahiyyəti struktur və funksional baxımdan müxtəlif miqyaslarda şərh edilmişdir. Bu definisiyada harmoniya elə bir mədəniyyət fenomeni qismində göstərilir ki, insan və dünya binasını onların arasındakı daxili nizamlılıq kontekstində dərk etməyə yönəldir[96].

Harmoniya attraktordur, insanları öz cazibə sahəsinə daxil edir, insanlar harmonik münasibətlərin vacibliyini dərk etdikdə buna can atır. İnsan cəmiyyətində ziddiyyətlər həmişə mövcud olur, harmoniya bu ziddiyyətlərin elə bir həllini tapmaqdır ki, insanlar arasında qarşılıqlı münasibətin ahəngdarlığını, ümumin rifahı üçün əməkdaşlığı təmin etsin.

Sinergetik baxımdan harmoniyanın tərkib elementləri kimi təşəkkülün harmonik bütövə tədricən konvergensiyası, müxtəlif komponentlərin vahid üzvi bütövlüyə qovuşması və inkişafın təbiətinə uyğun gələn bütövün strukturunda müxtəlifliyin optimal uyğunluğunu göstərmək olar.

İnsan həyatının mənasını dərk etmə məsələsində hər fərdin səviyyəsi ilk növbədə onun başqalarına münasibətindəki harmoniya ilə təyin edilir.

İslamın mədəni təsirləri sosial həyatın bütün sahələrini əhatə edir.

İslam təliminə görə insan və kainatda mövcud olan harmoniyanın zəminində İlahi nizam dayanır. Bu məntiqlə kainat - yer, göy Tanrının hökmü ilə olacağı formada yaradılmış, günəşin və ayın hərəkət yolları əvvəlcədən müəyyən edilmişdir. Xalq poeziyasında da harmoniya haqqında fikirlər İslam təliminə uyğun İlahi nizamla

---

96 Новейший философский словарь. –Минск.: Книжный Дом. –2003. с.205.

əlaqələndirilir, bunu əsaslandırmaq üçün müqəddəs Quranın müvafiq ayələrinə istinad edilir.

Xalq poeziyasında harmoniya kateqoriyasına ekvivalent poetik münasibətlər mövcuddur. Xalq poeziyası klassiklərinin ustadnamələrində, təcnis və qoşmalarında öz zəngin həyat təcrübəsi, xalq hikməti və müqəddəs Quran ayələrinın həqiqətləri əsasında harmoniyanın insan həyatında, insan-cəmiyyət-təbiət iyerarxiyasında oynadığı mühüm rolu sadə, sadə olduğu qədər də tutumlu və inandırıcı poetik ustalıqla göstərmişlər.

*Altı gündə xəlq eylədi aləmi sübhanı mərd;*
*Aya, Günə qərar qoyub, dolanır dünyanı mərd.*
*Məhəmməd şəninə endi doxsan min kəlmə tamam;*
*Osman yazdı, cəm eylədi otuz cüz Quranı mərd*[97].

Ulu Tanrı yeri, göyü- kainatı altı günə yaratmışdır. Ayın və günəşin hərəkət qanunlarını əvvəlcədən müəyyən etmiş və ona sürəklilik, əbədilik vermişdir. Qurani-Kərim Məhəmməd peyğəmbərin şəninə yerə göndərilmişdir və kainatın sirri-müəmmaları Quranda öz əksini tapmışdır. Günəş də, Ay da öz orbitində hərəkətdədir, yəni, harmoniyanın dinamik, dəyişkən fenomen olması fikrinə Quran ayələrində rast gəlmək mümkündür.

Xalq poeziyasında kainatın harmoniya prinsiplərinə uyğunluğu Quran ayələri ilə əsaslandırılır. Tanrı kainatın binasını öz ədalətli, yəni öz nizamı və qanunlarına müvafiq yaratmışdır.

Beşinci fəslin **“İslam əxlaqı və harmonik şəxsiyyət problemi”** adlı paraqrafı harmonik şəxsiyyət probleminin həllində İslam mənəvi prinsiplərinin roluna həsr edilib.

Cəmiyyətin dayanıqlı inkişafı probleminin həllində mənəvi prinsiplər xüsusi əhəmiyyətə malikdir, bütün cəmiyyəti əhatə edir, cəmiyyətin uzun tarixi inkişafı prosesində yaradılan münasibətlərin mədəni əsaslarını bərkidir.

Milli mənəviyyatımızın əsas elementlərindən biri İslamdır. Qeyd edildiyi kimi, İslam həyatın bütün sahələrini, insanların fiziki və

---

[97] Aşıq Ələsgər, Şeirlər, dastan-rəvayətlər, xatirələr/ Aşıq Ələsgər. – Bakı: Elm və təhsil. – 2021. – s.201.

intellektual fəaliyyətini, cəmiyyətdə qarşılıqlı münasibətlərini ehtiva edən təlimatlarla zəngindir.

İslam əxlaqı yüksək mənəvi-iradi keyfiyyətlərə malik şəxsiyyətin formalaşdırılmasında zəruri vasitələrdən biri kimi qəbul edilmişdir. İnsanlara yüksək əxlaqi və mənəvi keyfiyyətlər aşılayır.

İnsanın formalaşması onun hərtərəfli inkişafı ilə müəyyən edilir, *"fəlsəfi idrak kontekstində insanın özünüinkişafı onun formalaşması prosesinin əsasını təşkil edir"*[98].

İslam xeyirxahlığa, ədalətli olmağa, şərəf və ləyaqəti qorumağa çağırır.

Dünyanın harmoniyası geniş mənada insan mənəviyyatı, onun dünyagörüşü baxımından qiymətləndirilir. Belə ki, biz dünyaya insanın gözləri ilə baxır, insan zəkası ilə dünyanı dərk edirik.

Düzlük, həqiqət tərəfdarı olmaq sosial həyatın bütün sahələrində zəruridir, belə ki, bu keyfiyyətə malik olmayan bir fərdin nə sözü, nə də əməli cəmiyyət tərəfindən qəbul olunmur.

*Bir gün olar xeyr-şərlər seçilər,*
*Boya görə yaxşı xələt biçilər,*
*Bu dünyadan o dünyaya köçülər,*
*Abbas onda elər şikayət, könül!*[99]

Ustadnamədə nəzərə çatdırılır ki, məsuliyyət, mənəvi borcun dərk edilməsi şəxsiyyətin ən vacib xarakteristikasıdır, əxlaqi münasibətlərdə məsuliyyət hissi başlıca şərtlərdən biridir. Günahını dərk etmək insanın şüurunda dərin kök salır, bu günahın işlənməsi dəfələrlə xatırlanır. İnsan öz günahlarından o zaman əziyyət çəkir ki, o, öz günahlarını başa düşür, bu halda isə əzab və günah birləşir.

Vicdan və ləyaqət bir-birini tamamlayan, bir-biri ilə vəhdətdə olan kateqoriyalardır. İnsanın mənəvi keyfiyyətləri, davranış və əməllərinə fərdi və ictimai qiymətləndirmə bu kriteriyalar üzrə aparılır.

İslamda əməlin ədalət prinsipi ilə qiymətləndirilməsi insanda öz

---

[98] Михайличенко, В. Е. Психология развития личности/ В. Е. Михайличенко. – Харьков : НТУ «ХПИ». – 2015. – с.196.

[99] Azərbaycan aşıq şeirindən seçmələr:[2 cilddə]/ Bakı: "Şərq-Qərb", – I cild. – 2005. – s.126.

davranış və rəftarının, əməli işinin doğruluğuna inam yaradır. Nəticədə kamil insanın formalaşması üçün həm nəzəri, həm də praktiki zəmin yaradılmış olur.

Xalq poeziyasının klassikləri öz yaradıcılıqlarında İslamın mənəviyyat prinsiplərini və bu prinsiplərin insan həyatında önəmli rolunu məhəbbətlə vəsf etmişlər.

Xalq poeziyası əsrlər boyu vətənə, mənsub olduğu xalqa, təbiətə sevgi aşılayaraq xalqın sağlam mənəviyyatının formalaşmasında, ahəngdar inkişaf etmiş kamil şəxsiyyətin yetişməsində əhəmiyyətli rol oynamışdır.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat prosesində əldə olunan əsas müddəalar ümumiləşdirilir və onların xalq poeziyasının ontoloji və qneseoloji problemlərinin həllindəki əhəmiyyəti qeyd edilir.

**Nəticə.** Azərbaycan**(**türk) xalq poeziyası mükəmməl sinergetik sistemdir, sinergetikanın qeyri-xəttilik, dinamik bütövlük, attraktor, bifurkasiya kateqoriyaları xalq şeirinin sistem şəklində təkmilləşmə və inkişaf qanunauyğunluqlarını tədqiqi üçün daha əlverişlidir.

1.Xalq poeziyasında milli dünyagörüşü -insanın onu əhatə edən gerçəkliyə və özünə münasibəti haqqında baxışlar sistemi, həmçinin bu baxışlar əsasında formalaşan inam, ideal, bilik və fəaliyyət prinsipləri, dəyər yönləri öz əksini tapır, bununla da varlığın ilk idrak formalarından biri qismində milli fəlsəfi düşüncə mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynayır.

2. Xalqın düşüncə və davranış tərzinin ifadəçisi və özünüidentifikasiya kriteriyaları sistemi milli mentalitet və etnik stereotiplərdir. Mentalitet bir-biri ilə ziddiyyət təşkil edən rasional və irrasional, genetik və sosioloji elementlərdən ibarət iyerarxik bir sistemdir, mərkəzdə çoxəsrlik kristallaşmış ənənələr, etnik şüurun dayanıqlı strukturu, ətrafda isə dəyişməyə meylli sosial həyatda qazanılanlardır.

Əxlaqi stereotiplər attraktor funksiyasını daşıyır, ədalət prinsipi, təmənnasız yaxşılıq, xeyirxahlıq cəmiyyətin dayanıqlı və davamlı inkişafını təmin edir.

3. Baş beynin fiziologiyası sahəsində aparılan tədqiqatların inkişaf mərhələlərinin təhlili göstərir ki, mürəkkəb qeyri-xətti dinamik sistemlərin təbiəti problemi və onun tədqiqi, bunun əsasında sinergetik

prinsip və kateqoriyaların formalaşma mərhələlərinin aşkar edilməsində fizioloqların elmi nailiyyətləri mühüm metodoloji əhəmiyyətə malikdir.

4.Postqeyri-klassik paradiqmanın nüvəsini sinergetikanın əsas prinsip və kateqoriyaları təşkil edir.

Sinergetika varlığın ontoloji əsaslarına yeni baxışdır, varlıq və təşəkkül proseslərinə münasibəti dəyişdirmiş, reallığın elmi şərhində, obyekt-subyekt münasibətlərində təsadüfi faktorların konstruktiv rolunu təsbit etmiş, mövcud kateqoriyaları yeni məzmunla zənginləşdirmişdir.

5. Xalq poeziyasının təkamül tarixini nəzərdən keçirdikdə aydın olur ki, xalq şeiri rekursiya prinsipinə uyğun formalaşır və bunun sayəsində fraktal struktura malik olur. Fraktallıq xalq poeziyasını konseptual nöqteyi-nəzərdən də xarakterizə edir.

Poeziya qeyri-xətti bir sistemdir və poeziya əsərinin bütövlüyü paralelizm və konvergensiya ilə yanaşı koherentliklə də birbaşa əlaqəlidir.

Xalq şeiri sinir mərkəzlərinin lokallaşdırılmış nüvə strukturlarını, funksiyaların dinamik lokallaşdırılmasını ehtiva edir. Kainat, baş beyin və təcnisin strukturları arasında izomorfluq mövcuddur.

Poetik formulunun əsas funksiyası, fikrimizcə, dünyadərkinin mahiyyətini anlamağa kömək etməkdir, üslubi, leksik və semantik qanunauyğunluqlar köməkçi rol oynayır.

6. P. K. Anoxinin konvergensiya haqqında fikirləri fənlərarası tədqiqatlarda geniş istifadə edilə bilər. Fənlərarası tədqiqatlarda məhz təbiət elmləri ilə humanitar elmlərin konvergensiyası, "qarşılıqlı təsir, müqayisə və sintez prosesləri" baş verir. Azərbaycan xalq poeziyası öz genezisi və inkişaf mexanizmi ilə funksional sistem nəzəriyyəsinin poetik bir şərhidir, sistemogenez və qabaqlayıcı inikas konsepsiyasının elmi-metodoloji potensialını nümayiş etdirir.

7. Ənənə və varislik zəminində Azərbaycan xalq poeziyası öz optimal formasına tədricən yaxınlaşır. Bu yaxınlaşma mexanizmi A.N. Kolmoqorovun qnoseoloji prinsipinə uyğundur.

Azərbaycan xalq poeziyasında optimallıq problemi yaradıcılıq prosesi üçün xarakterik olan məhdudiyyətləri nəzərə alır.

8. Metaforiklik poetik düşüncə ilə poetik dil arasındakı yüksək funksional-struktur uyğunluğunu şərtləndirir. Düşüncə və dilin birgə təkamülü öz yüksək mükəmməllik dərəcəsinə poetik dillə poetik düşüncənin poeziyaya konvergensiyasında çatır. Öz tarixi təkamülü

nəticəsində baş beyində formalaşan izomorfluq, fraktallıq və qeyri-xəttilik xassələri düşüncə və dildə müxtəlif formalarda təcəssüm olunur.

9. Poetik refleksiya dinamik kateqoriyadır, poeziyada gerçəkliyin dərkinə yanaşma üsulları və onun adekvat ifadə formalarının axtarışı mexanizmini özündə ehtiva edir. Poetik refleksiya gerçəkliyin dərkinə yönəlmiş şair baxışlarının sintetik xarakteristikasıdır, müəyyən dövr ərzində poetik yaradıcılığın müxtəlif aspektlərində qazanılan nailiyyətləri sintez edir.

10. Xalq poeziyası gerçəklikdəki obyektlərarası qeyri-xətti əlaqə və münasibətlərin poetik inikasını verir. Poetik inikas müxtəlif transformasiyalardan ibarət çoxmərhələli, mürəkkəb bir prosesdir.

Birinci mərhələdə gerçəklik poetik refleksiyada öz inikas formasını tapır, ikinci mərhələdə isə poetik inikas poetik verbal ifadə formalarına transformasiya olunur. İkinci mərhələnin əsasını qeyri-xətti çevirmələr ardıcıllığı təşkil edir.

11. Azərbaycan(türk) xalq poeziyasında sinergetik sintezin struktur və konseptual formalarının nümunələri yaradılmışdır. Birinci halda müxtəlif şeir formalarının sintezi ilə çoxsəviyyəli iyerarxik struktur yaradılır, ikinci halda isə sintez xalqın özünüdərk prosesinin keyfiyyətcə yeni səviyyəyə yüksəlişi formasında ifadə olunur.

12. Metafora sistem kateqoriyasıdır, qeyri-xətti çox mərhələli prosesləri əks etdirir, metaforanı mürəkkəb qeyri-xətti özünüinkişaf etdirən sistemin verbal analoqu kimi xarakterizə etmək olar. Metaforanın prosessuallığı, yeniliyə meylliliyi və konstruktivliyi sinergetik paradiqmanın prinsipləri ilə tamamilə uyğun gəlir.

13. Xalq poeziyasında milli konseptlərin tədqiqi xalq təfəkkürünün konseptuallaşdırma prinsiplərinin formalaşma mexanizmini üzə çıxarır. Konseptin dinamik təbiəti xalq təfəkküründə gerçəkliyə münasibətin konseptual müstəvidə inkişafını əks etdirməyə imkan verir. Konseptual fraktallarda etnosun gerçəkliyə sinergetik baxışlarının elementlərinə rast gəlirik.

14.Azərbaycan xalq poeziyasında inşan gerçəklik münasibətləri mənəviyyat prinsipləri üzərində qurulur. Aşıqlarımızın dünyabaxışları zəngin həyat təcrübəsi ilə yanaşı İslam mənəviyyat prinsipləri əsasında formalaşıb və onlar öz yaradıcılığında insan və gerçəklik münasibətlərinin dini-fəlsəfi şərhini verməyə çalışmışlar.

15. Elmi-fəlsəfi və dini baxışların müqayisəli təhlili harmoniya kateqoriyasının mahiyyətinə daha dərindən nüfuz etmək imkanı verir. Xalq poeziyasında harmoniyanın dini- fəlsəfi aspektlərini əhatə edən mövzulara dərin mənalı yüksək mənəvi-estetik təsirə malik ustadnamələr həsr edilmişdir.

16. İslam düşüncə tərzinin üstünlük təşkil etdiyi Azərbaycan xalq poeziyası əsrlər boyu vətənə, mənsub olduğu xalqa, təbiətə sevgi aşılayaraq xalqın sağlam mənəviyyatının formalaşmasında, ahəngdar, kamil şəxsiyyətin yetişməsində böyük rol oynamışdır. Mənəviyyatın aşındığı indiki dövrdə xalq poeziyasının müasir səviyyədə tədqiqi, tədrisi və təbliği daha aktualdır.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır.**


1. Mentallıq və mentalitet sinergetik paradiqmalar kontekstində, //‒ Bakı: Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmlər seriyası,‒2017, №4,‒s. 86-98.
2. Aşıq Hüseyn Bozalqanlının şeirlərində konseptual fraktallar// ‒ Bakı: Azərbaycan Milli ElmlərAkademiyası, Fəlsəfə İnstitutu, Elmi əsərlər,‒2018, №2(31),‒s.119-125.
3. Xalq poeziyasında islam əxlaqı və harmonik şəxsiyyət məsələləri//‒Bakı: Dövlət və din,‒2018, №3,‒s.34-39.
4. Xalq poeziyasında forma və məzmun dialektikası//‒ Bakı: Geostrategiya,‒2018, №4,‒s. 10-14.
5. О поэтической рефлексии в народной поэзии Азербайджана The European Journal of Humanities and SocialSciences, Vienne, 2018, №5 pp. 45-51
6. Azərbaycan xalq poeziyasında ənənə, varislik və yaradıcılıq məsələləri// ‒Bakı: Fənlərarası tədqiqatlar və epistemologiyanın problemləri,‒2019,‒s.91-105.
7. Dövlət bayrağı atributları milli mentalitetin ifadəçisi kimi “Dövlət atributlarından konstitusiyaya” adlı respublika elmi-praktik konfrans, Bakı: 2019, s. 275-279
8. Sinergetika və xalq poeziyası “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya” I Beynəlxalq elmi-

texniki konfrans I hissə, Bakı: 2019 s. 363-366.

9. Конвергенция и параллелизм как факторы формирования целостности VII ялтинские философские чтения. «Гуманитарный дискурс в современной философии и культуре» Архонт, 2020 № 6 (21) С. 28-33.
10. Поэтическая формула как способ выражения философских мыслей VII ялтинские философские чтения.«Гуманитарный дискурс в современной философии и культуре»// Архонт, 2020 № 6 (21) С. 22-27.
11. Мысли и афоризмы в народной поэзии Азербайджана Современные инновации, 2020 X международная заочная научно-практическая конференция «современные инновации в эпоху глобализации: теория, методология, практика Москва (29-30 сентября 2020 г.) с. 14-17.
12. О познавательной роли метафоры в народной поэзии Азербайджана Современные инновации, 2020 X международная заочная научно-практическая конференция «современные инновации в эпоху глобализации: теория, методология, практика Москва (29-30 сентября 2020 г.) № 3(37) стр.18-21
13. Xalq poeziyasının genezisi və rekursiya prinsipi//–Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji elmlər seriyası, –2021, c.69, №1, – s.115-122.
14. Poetik refleksiya kontekstində klassik poeziya və xalq poeziyası əlaqələri : Məhəmməd Füzuli və aşıq Hüseyn Bozalqanlı // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji elmlər seriyası, –2021, c.69, №2, –s. 49-57.
15. Folklor fəlsəfi tədqiqat obyekti kimi // – Bakı: Mədəniyyət dünyası, – 2021, XXXX buraxılış, – s.128-140.
16. Xalq poeziyasında insan və gerçəklik münasibətləri// – Bakı: Dövlət və din,– 2021, №03(70),– s.60-66.
17. Xalq poeziyasında harmoniya kateqoriyasına münasibət(İslami baxış)//– Bakı:Din araşdırmaları, – 2021, № 2(7), –s. 385-498.
18. Konseptlər milli fəlsəfi düşüncənin ifadə forması kimi // –Bakı: Sivilizasiya, – 2021, c. 10, № 4, –s.15-21.
19. Sinergetik paradiqma elmi tədqiqatın metodoloji prinsipi kimi// –

Bakı: Əmək və sosial münasibətlər, − 2021, № 2(16), − s.47-57.
20. Türk xalq poeziyasında sinergetik sintez gerçəkliyin bütöv dərki üsulu kimi// − Bakı: Elm və İnnovativ Texnologiyalar, − 2021, №19, − s.33-49.
21. Logical and Methodological Analysis and the foundations of the transition from the study of the brain's physiology to synergetic principles AD ALTA-Journal of interdisciplinary research, 2021 special 17 11/01-XVII. pp. 134-138.
22. Metaphor as an object of the synergy paradigm study. Linguistics and Culture Review, 2021 5(S1) s.1-10.
23. Взаимосвязь тюркской народной поэзии и теории функциональных систем в свете эволюционной эпистемологии Современная наука: Актуальные проблемы теории и практики, Познание 2021 №7 с. 77-82.
24. Фразеологизмы как способ выражения национального миропонимания Вестник науки и образования 2021 № 7(110) Часть 1 с.65-68.
25. Türk xalq poeziyasında qeyri-xəttiliyin ontoqnoseoloji məsələləri haqqında. Dahi Azərbaycan şairi Məhəmməd Şəhriyarın 115 illiyinə həsr olunmuş“Tolerant valuesinthe modern world” XV beynəlxalq elmi konfrans 2021 s. 221-225.
26. Xalq və klassik poeziya nümayəndələri poeziyanın qneseoloji problemləri haqqında İdrak nəzəriyyəsinin problemləri: fənlərarası yanaşma prizmasında, Bakı 2022 səh.49-63
27. Quliyev F.A., Poetik dil və poetik düşüncə münasibətlərinin fəlsəfi aspektləri // − Bakı: Sivilizasiya, − 2023, c. 12, № 4. − s.6-13.
28. Национальные стереотипы: подходы к определению и теоретико-практическое значение в национальной культуре Geostrategiya 2023 №05(77) səh.163-167.
29. О научно-философских проблемах народной поэзии Азербайджана: синергетический подход, Əmək və sosial münasibətlər, Bakı 2023 №2(20) стр.16-27.
30. Quliyev, F.A., Sinesteziya gerçəkliyin dərki metodu kimi//The XXXV International Scientific Symposium "Mahmud Kashgari: Common Heritage of the Turkic World" Amsterdam, Holland, −

2023, – p. 191-193.

31. Poetik təfəkkürün kateqoriyalarına dair. //–Bakı: Müasir fəlsəfi-elmi idrak: nəzəri-metodoloji və cəmiyyətə tətbiqi aspektlərinin qarşılıqlı əlaqəsi,– 2023,–s.91-103.

32. Онтогносеологические предпосылки гармонии в тюркской народной поэзии// Košice, Path of Science: International Electronic Scientific Journal, 2024, т.10, № 1, с.9008-9015.



Dissertasiyanın müdafiəsi 10 iyun 2025-ci il tarixində saat 11⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.33/2 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, AZ 1143, Hüseyn Cavid prospekti, 115, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “ 7 may ” 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir

Çapa imzalanıb: 05.05.2025
Kağızın formatı: A5
Həcmi: 76 147
Tiraj: 100